

KİVDF

GƏNCƏ – QƏDİMLİKLƏ MÜASİRLİYİN QOVUŞDUĞU UNİKAL MƏKAN

SƏH. 2

ALİM RƏYİ

Demoqrafik vəziyyətdə baş verən dəyişikliklər və onun nizamlanması istiqamətləri

SƏH. 3



VERGİ

Azərbaycan vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək reytinqə layiq görülüb

SƏH. 4



№ 46 (941) 18 - 24 NOYABR 2016-cı il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


## Ölkəmiz müasirdir, dinamikdir və gələcək üçün nəhəng potensiala malikdir




Noyabrın 16-da Heydər Əliyev Fondunun və AZƏRTAC-ın birgə təşkilatçılığı ilə Bakıda, Heydər Əliyev Mərkəzində Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasının birgə açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Azərbaycan noyabrın 16-dan etibarən üç gün ərzində nüfuzlu beynəlxalq media qurumlarının toplantılarına - Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına və MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXII iclasına ev sahibliyi edəcək. Tədbirlərdə 80 ölkədən 100-ə yaxın xəbər agentliyinin dünyanın informasiya siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən 190-dək rəhbəri və təmsilçisi, media üzrə beynəlxalq ekspertlər, BMT - UNESCO-nun rəsmi nümayəndəsi, həmçinin regional media qurumlarının əməkdaşları iştirak edirlər. Konqresdə dünyanın bütün qitələrindən xəbər agentlikləri təmsil olunur. Belə ki, Bakıya Asiyanın 31 ölkəsindən 39 agentliyin 77 nümayəndəsi, Avropanın 23 ölkəsindən 30 agentliyin 51 təmsilçisi, Afrika qitəsinin 16 ölkəsindən 16 agentliyin 25 nümayəndəsi, Amerika qitəsinin 7 ölkəsindən 9 agentliyin 17 əməkdaşı, habelə Avstraliyanın 3 agentliyini təmsil edən 4 nümayəndə gəlib.

Dövlətimizin başçısı açılış mərasimində nitq söyləmişdir. O, demişdir: -

Belə bir vacib, qlobal və beynəlxalq tədbirə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Əminəm ki, qonaqlarımız gündəlikdəki vacib məsələlərin müzakirəsi ilə yanaşı, Azərbaycan haqqında daha dolğun məlumat əldə edəcək, ölkənin inkişafının şahidi olacaqlar. Bu ölkə müasirdir, dinamikdir və gələcək üçün nəhəng potensiala malikdir. Biz bu tədbirin Bakıda keçirilməsini həm də müstəqil medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisi hesab edirik. Bu, hökumətimiz üçün prioritetlərdən biridir və düşünürəm ki, müstəqilliyimizin 25 ili ərzindəki nailiyyətlərimiz bizim media azadlığı ilə yanaşı, bütün digər fundamental azadlıqların təmin edilməsinə müvəffəq olduğumuzu nümayiş etdirir.

Bu gün Azərbaycanda 40-dan artıq gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzetlər fəaliyyət göstərir. Ölkə ərazisində 10 milli, 1 peyk, 13 regional və 17 kabel televiziyası yayımlanır. Azərbaycan internetin tam azad olduğu ölkədir və əhalimizin 75 faizindən çoxu fəal internet istifadəçisidir. Ölkə əhalisinin sayı təqribən 10 milyon nəfərdir və Azərbaycanda sosial mediadan istifadə edənlərin sayı 2 milyondur. Bu rəqəm onu nümayiş etdirir ki, Azərbaycanda azad medianın inkişafı çox uğurlu olub. Biz məqsədimizə nail olmuşuq və bu 25 il ərzində siyasi və iqtisadi islahatlarla yanaşı, transformasiya keçmiş sahələrdən biri demokratik inkişaf istiqamətindəki islahatlar olub.

Ötən ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etdik. Müstəqilliyimiz 1991-ci ildə bərpa edildi və biz öz həyatımızı yaşamağa başladıq. Biz ölkəni yenidən qurmalı, siyasi təsisatları yaratmalı, iqtisadiyyatımızı müasirləşdirməli və dünya xəritəsində yerimizi müəyyən etməli idik. Bu illər Azərbaycan xalqının əsas hədəflərə nail olduğunu nümayiş etdirir. Bu gün Azərbaycan beynəlxalq arenada nüfuza malik dövlətdir. Burada bir faktı qeyd etmək kifayət edər. Bir neçə il əvvəl Azərbaycan dünyanın ən mötəbər beynəlxalq qurumu - BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Biz bu üzvlüyü 155 dövlətin dəstəyi sayəsində əldə etmişik. Yəni, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti, hətta Azərbaycan ilə fəal siyasi təmaslara malik olmayan ölkələr belə bizim namizədliyimizi dəstəkləyib.

Biz əməkdaşlıq və qarşılıqlı anlaşma gündəliyini təklif edirik. Bunlar müsbət meyillərdir. Bu baxımdan bizim rolumuz əsasən ənənələrimiz və ölkəmizin ehtiyacları üzərində qurulub. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Azərbaycanda əmin-amanlıq hökm sürür, müxtəlif etnik və dini qrupların nümayəndələri sülh və ləyaqət şəraitində yaşayırlar. Eyni zamanda, bu, dünyaya bir mesajdır. Biz tənha bir ada deyilik, qonşuluğumuzda digər ölkələr var və bizim qanunauyğun marağımızdadır ki, bu sahədə regionda və dünyada müsbət inkişaf mövcud olsun.

Müstəqilliyin bərpa olunmasından sonra uzun illərdir üzləşdiyimiz problemlər sırasında istər tarixi, istərsə də hüquqi baxımdan Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı dayanır. Münaqişə ən qısa zamanda öz həllini tapmalıdır.

Bu gün Azərbaycan müasir, inkişafda olan, özünü təmin edən ölkədir, güclü və şaxələndirilmiş iqtisadiyyata malikdir. Sosial təminat yüksək səviyyədə təmin edilir, bütün iqtisadi proqramlarımız həyata keçirilib, onların bəziləri hətta vaxtından əvvəl icra olunub. Son 13 ildə Azərbaycan iqtisadiyyatı üç dəfə artıb. Biz yoxsulluğun öhdəsindən gələ bilmişik və bu gün bu göstərici 5 faiz səviyyəsindədir. İşsizlik də təqribən həmin səviyyədədir.

Qarşılıqlı maraq üzərində qurulmuş geniş regional əməkdaşlığın yaradılması istiqamətində tərəfimizdən böyük səylər göstərilir. Xüsusilə də enerji və nəqliyyat sahələrində. Bizim təşəbbüslərimiz artıq öz bəhrəsini verir. 1990-cı illərin ortalarında Azərbaycan tərəfindən irəli sürülmüş enerji layihələri regionumuza firavanlıq gətirib. Biz Xəzərin nəhəng enerji ehtiyatlarını dünya bazarlarına çıxaran ilk ölkə olmuşuq. Xəzər dənizinin şaxələndirilmiş boru kəmərləri sistemi vasitəsilə Qara və Aralıq dənizləri ilə birləşdirilməsi Azərbaycanın ən mühüm nailiyyətlərindəndir.

Bu gün biz "Cənub Qaz Dəhlizi" adlanan qlobal enerji layihəsi üzərində çalışırıq. Onun icrası nəticəsində biz bir sıra ölkələr üçün etibarlı qaz ixracatçısına çevriləcəyik. Layihənin dəyəri təqribən 45 milyard dollardır və Azərbaycan onun həyata keçirilməsində aparıcı rol oynayır.

Bizim enerji siyasətimiz milli maraqlarımıza və əməkdaşlığa əsaslanır. Eyni sözləri bizim etibarlı nəqliyyat dəhlizinin yaradılması təşəbbüsümüz haqqında da demək olar. Biz üstün coğrafi mövqeyə malikik. Ancaq müvafiq infrastruktur olmadan bu coğrafiya o qədər də böyük əhəmiyyət kəsb etmir. Bu səbəbdən bizim səylərimiz nəqliyyat sahəsində regional əməkdaşlığın yaradılmasına yönəldilib.

Təbii ki, burada sərmayəyə ehtiyac var. Biz həm sərmayə yatırır, həm də bu layihələrin icrası üçün digər tərəfdaşlarımıza maliyyə dəstəyi veririk. Bunun məqsədi isə yenə də regional əməkdaşlıq, proqnozlaşdırılma, iqtisadi mənfəət və təhlükəsizlikdir. Bizim siyasətimiz hər zaman risklərin azaldılmasına hesablanır. Bu gün Azərbaycanda olan vəziyyət onu nümayiş etdirir ki, bu, təkcə bizim ölkə üçün deyil, bütün region üçün düzgün siyasətdir.

Sosial layihələrin icrası sırasında ən vaciblərindən biri qaçqınların və məcburi köçkünlərin yerləşdirilməsi olmuşdur. Bu qəbildən olan 250 min nəfər yeni evlərlə və mənzillərlə təmin edilmişdir. Təhsil infrastrukturuna böyük vəsait yatırılmış, Azərbaycanda 3 mindən artıq yeni məktəb inşa edilmişdir. Biz fəxr edə bilərik ki, Azərbaycanda savadlılıq 100 faiz səviyyəsindədir. Bu isə bizə inkişaf etmək imkanı yaradacaq.

Gələn il biz IV İslam Həmrəyliyi Oyunlarını qəbul edəcəyik. Yəni, iki il içərisində bir şəhərdə həm Avropa, həm də İslam Həmrəyliyi Oyunları təşkil edilmiş olacaq. Bir az əvvəl qeyd etdiyim fikrə qayıtmaq istəyirəm - əlaqə, multikulturalizm, qarşılıqlı anlaşma və qarşılıqlı hörmət. Budur, bizim təşviq etmək istədiklərimiz. Təbii ki, güclü media dəstəyi olmasa, biz bu sahədə uğur əldə edə bilmərik.

Bir dövlət başçısı və siyasətçi kimi, əminəm ki, medianın beynəlxalq hadisələrdəki rolu dəqiqliklə təhlil edilməlidir. Çünki medianın rolu gündən–günə artır və bununla yanaşı, məsuliyyət də artır. Biz bir çox hallarda media tərəfindən işıqlandırılan hadisələrin gərginlik, qan tökülməsi və qarşıdurma yaratdığının şahidi oluruq. Bu səbəbdən əməkdaşlıq dəyərlərinin təşviqi baxımından xəbər agentliklərinin və medianın dəstəyi olduqca əhəmiyyətlidir. Bununla siyasətçilər ümumbəşəri dəyərlərin müdafiəsi üçün yeni imkanlar əldə etmiş olurlar. Bununla dəyərlərin təşviqində bizə daha ardıcıl və fəal olmaq fürsəti verilmiş olur. Bəzən mediada gördüklərimiz və oxuduqlarımız reallıqdan fərqlənir. Bunu şəxsi təcrübəmdən deyə bilərəm. Əlbəttə, istənilən dövlətin Prezidenti kifayət qədər dəqiq məlumat mənbələrinə malikdir. Ancaq beynəlxalq media vasitəsilə izlədiyimiz bu və ya digər eyni hadisə onun kim tərəfindən təqdim edilməsindən asılı olaraq, bəzən fərqli şəkildə çatdırılır. Bu səbəbdən biz eyni hadisənin siyasi motivlərə əsaslanan fərqli təqdimatının şahidi oluruq. Yaxın Şərq, müharibələr, Avropa, postsovet məkanı – burada eyni hadisə fərqli şəkildə təqdim edilir. Yəni, biz burada siyasi motivlər və müəyyən mənada müxtəlif siyasi dairələrin müdaxiləsinin şahidi oluruq. Hadisələrin gedişi müəyyən çərçivəyə salınır, təqdim edilməli olan məsələlər müəyyənləşdirilir, digər mövzular isə qadağan edilir.

Bu səbəbdən sizin bugünkü toplantınız və Konqresiniz bu mühüm məsələləri nəzərdən keçirəcək.

* * *

Sonra UNESCO-nun baş direktoru xanım İrina Bokovanın videomüraciəti nümayiş etdirilmişdir.

Tədbirdə UNESCO-nun baş direktorunun müavini Qetaçyu Enqida nitq söyləmiş, qısa fasilədən sonra açılış mərasimi çıxışlarla davam etmişdir.








# İlham Əliyev: İşğaldan azad edilmiş ərazilərdə ən müasir şəraiti yaratmaq bizim siyasətimizi əks etdirir və gücümüzü göstərir

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli və Beyləqan rayonlarında səfərdə olmuşdur.

O, Füzuli rayonuna səfəri çərçivəsində rayonun ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə, Füzuli rayonunun Horadiz şəhərində inşa edilən avtovağzal kompleksində yaradılan şəraitlə, Horadiz şəhərində məcburi köçkünlər üçün salınan yeni qəsəbədə yaradılan şəraitlə, Füzuli rayonundakı 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolunun yenidənqurma və bərpadan sonrakı vəziyyəti ilə tanış olmuş, "Azərxalça" ASC-nin ilk filialının - xalça kombinatının, Füzuli rayonunun Horadiz şəhərində Dövlət Rəsm Qalereyasının açılışlarında iştirak etmişdir.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfəri çərçivəsində "Qarabağ Taxıl" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) özəl pilot taxılçılıq təsərrüfatının fəaliyyəti ilə, "Beyləqan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində görülən işlərlə tanış olmuş,Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 240 şagird yerlik Beyləqan şəhər 8 nömrəli tam orta məktəbin binasının, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 8 saylı körpələr evi-uşaq bağçasının açılışlarında iştirak etmiş, əsaslı yenidənqurma və bərpadan sonra istifadəyə verilən Birinci Şahsevən-Əhmədli-Dünyamalılar avtomobil yolunda yaradılan şəraitlə tanış olmuşdur.

# Azərbaycanda qızıl hasilatı 14,5% azalıb

2016-cı ilin yanvar-oktyabr aylarında Azərbaycanda qızıl hasilatı 1 min 616,8 kq təşkil edib ki, bu da ötən ilin analoji dövrünün göstəricisindən 14,5% azdır. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

2016-cı ilin oktyabr ayında Azərbaycanda 165 kq qızıl hasil olunub.

Hasil edilən qızıl emala göndərilib.

2015-ci ildə Azərbaycanda 2 229,3 kq qızıl hasil olunub, hasilatın həcmi 19,1% artıb.

Azərbaycan hökuməti 2016-cı ilin yekunları üzrə qızıl hasilatının həcmini 1 min 891,6 kq səviyyəsində proqnozlaşdırır.

Hazırda Azərbaycanda qızıl və gümüş 1997-ci il avqust ayının 21-də imzalanmış Production Sharing Agreement tipli müqavilə çərçivəsində "Gədəbəy" yatağından hasil olunur. Müqavilə 6 yatağın – Naxçıvanda 1, Gədəbəydə 2, hazırda erməni işğalı altında olan Kəlbəcər və Zəngilanda 3 yatağın işlənməsini nəzərdə tutur. Müqavilədə Azərbaycanın payı 51%, "Anglo Asian Mining PLC" şirkətinin payı 49% təşkil edir.

Müqaviləyə görə, bu 6 yataqdan 400 ton qızıl hasilatı planlaşdırılır.

İlk qızıl hasilatına 2009-cu ildə, gümüş hasilatına 2010-cu ildə "Gədəbəy" yatağından başlanılıb. "Qoşa" yatağından qızıl



hasilatı 2013-cü ilin III rübündən həyata keçirilir. 2015-ci ilin yayında isə şirkət "Qədir" yatağında qızıl hasilatına başlayıb.

# Azərbaycanda neft hasilatı azalıb, qaz hasilatı artıb

2016-cı ilin yanvar-oktyabr aylarında Azərbaycanda neft hasilatı (qaz kondensatı da daxil olmaqla) 34 mln. 718,5 min ton təşkil edib ki, bu da 2015-ci ilin analoji dövrünün göstəricisindən 0,8% azdır. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Yanvar-oktyabr aylarında 34 mln. 676 min ton əmtəə nefti (azalma 0,8%) hasil olunub.

Bu dövrdə 24 mlrd. 609,9 mln. kubmetr qaz (artım 0,6%) hasil olunub. Bununla yanaşı, yanvar-oktyabr aylarında əmtəə qazının hasilat həcmi 15 mlrd. 490,7 mln. kubmetr (azalma 5%) təşkil edib. 2015-ci ildə Azərbaycanda qaz kondensatı da daxil olmaqla, neft hasilatı 41 mln. 689 min ton, qaz hasilatı 29 mlrd. 742,4 mln.kubmetr təşkil edib.

Hökumətin proqnozlarına əsasən, 2016-cı ildə Azərbaycanda neft hasilatı 40 mln. 744,9 min ton, qaz hasilatı 29 mlrd. 345 mln. kubmetr təşkil edəcək.



# Bank BTB maliyyə göstəricilərini açıqladı

BANK BTB
ARZULARA YAXIN OL

Bank BTB cari ilin 3-cü rübü üzrə maliyyə göstəricilərini açıqlayıb.

Bankdan daxil olmuş məlumata görə, 30 sentyabr tarixinə bankın aktivləri 237 mln. manat təşkil edib, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 52,08% artım deməkdir.

Qeyd etmək lazımdır ki, bankın kredit portfellidə eyni dövr ərzində 54,96% artım göstərərək 147 mln. manat təşkil etmişdir. Depozit portfeli isə 82 mln. manat təşkil edir.

Bank mənfəət və zərər hesabatını da açıqlamışdır. Hesabat dövründə Bank BTB kreditlərə ehtiyatın yaradılması hesabına zərər etsə də, xalis əməliyyat mənfəəti 708 min manat olmuşdur.

Bankın məcmu kapitalı cüzi artım göstərməklə kapital normalarına tam uyğun olaraq 52 840 min manat təşkil etmişdir.

# Azərbaycanda Lada avtomobillərinin satışı kəskin azalıb

2016-ci ilin yanvar-sentyabr aylarında ötən ilin analoji dövrü ilə müqayisədə Azərbaycanda Lada avtomobillərinin satışı 48% azalıb.

Rusiya mətbuatı xəbər verir ki, bu ilin 9 ayında Azərbaycanda 1478 min ədəd Lada avtomobili satılıb.

Azərbaycanda Lada 4Ç4 modelinə daha çox tələbat var.



KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# GƏNCƏ – QƏDİMLİKLƏ MÜASİRLİYİN QOVUŞDUĞU UNİKAL MƏKAN

**Ulu Gəncə bir aydan sonra Avropanın Gənclər Paytaxtının ardınca MDB-nin Mədəniyyət Paytaxtı statusu qazanacaq. Bu ad, bu titul elə-belə verilmir. Bunun təməlində müasirləşən, inkişaf edən güclü Azərbaycan dövləti və onun beynəlxalq aləmdə nüfuzu dayanır. İnkişaf, dirçəliş və tərəqqi dalğası Nizami yurdundan da yan keçməyib. Respublikamızın ümumi inkişaf axarında ön cərgələrdə özünə yer tutan Gəncə şəhərində son illər həyata keçirilən iri layihələr nəticəsində yüksək standartlara uyğun mükəmməl infrastruktur yaradılıb, çoxsaylı sosial-mədəni obyektlər tikilib, bir çoxları yenidən qurulub. MDB-nin Mədəniyyət paytaxtı seçilmək məhz bu məziyyətlərdən qaynaqlanır.**

Keçmiş sovetlər dönəmində Kirovabad kimi tanınan bu qədim diyar 25 ildən artıqdır ki, öz əzəli-əbədi adına qovuşub. İndi Gəncə özünü milli koloritdə, özünəməxsus görkəmdə təqdim etmək imkanı qazanıb. Məhz bu cəhət – qədimliklə müasirliyin üzvi vəhdəti Gəncədə çox yüksək şəkildə öz təcəssümünü tapıb. Şəhərə ayaq basan yaxşı dərk edə bilir ki, tamamilə fərqli bir məkana, 4 mindən çox yaşı olan, tarixi keçmişini, genefondunu, adət-ənənəsini, milli-mədəni dəyərlər sistemini hifz edib saxlayan qədim türk torpağına, odlar yurduna təşrif buyurub. Qısa zaman kəsiyində belə parlaq görkəmə gəlib çatmaq dövlətimizin, dövlət başçımızın ciddi səyi və dəstəyi sayəsində mümkün olub. Gəncə tarixin heç bir dönəmində indiki qədər sürətli inkişaf etməyib. Gəncə sanki hər gün dəyişir. Burada bir gün də olsa, işlər səngimir, tempini itirmir. Söhbət genişmiqyaslı tikinti-quruculuq və abadlıq işlərindən gedir. Gəncənin inşaat işləri aparılmayan küçəsi, məhəlləsi yoxdur. Şəhərin hər yerində toran qovuşanacan işlər davam edir. Şəhərdə müxtəlif təyinatlı obyektlər tikilsə də, bunların içərisində sosial-mədəni obyektlərin sayı üstünlük təşkil edir. Gəncədə elə ay yoxdur ki, məktəb, uşaq bağçası, səhiyyə ocağı və yaxud digər sosial obyektin açılışı olmasın. Tikilən, təmir olunan hər bir obyekt yüksək standartlar səviyyəsindədir. Təkcə son iki ay ərzində 5 belə obyektin təntənəli açılışı həyata keçirilib. Bunların hər biri gözəlliyi, cəlbediciliyi ilə heyranlıq doğurur. Şəhərdəki 41 nömrəli orta məktəb binası, 2 nömrəli peşə liseyi, Beynəlxalq uşaq klubu və digər tikililər göz oxşayır.

Bakı-Qazax avtomobil yolunun sağ tərəfində, 15 hektarlıq ərazidə illik istehsal gücü 30 milyon ədəd olan kərpic zavodunun tikintisi sürətlə davam etdirilir. Belə bir nəhəng sənaye obyektinin işə düşməsi, digər layihələrin gerçəkləşməsinə də yol açacaqdır. Çünki Gəncə şəhərinin bərpa-yenidənqurma işlərində milli-memarlıq üslubu kimi qırmızı kərpicdən geniş istifadə olunur.

«Gəncəçay» Park-Bulvar Kompleksinin sol sahilində sahil-bərkitmə və parksalma işlərinin davam etdirilməsi üçün zəruri tədbirlər görülür. Yağış və sel sularının qarşısını almaq məqsədilə 1 kilometr uzunluğunda beton mühafizə divarları inşa edilib. Çayın məcrasında təmizlik və abadlıq işləri aparılır. Gəncənin ən cəlbedici məkanlarından birinə çevrilən Park-Bulvar Kompleksinin əks tərəfdəki tikintisinə yaxın vaxtlarda start veriləcək.

Vəli Xuluflu küçəsində 129 ailənin fərdi yaşayış evi ilə təmin edilməsi üçün tikinti işlərinə başlanılıb. 2012-ci ildə inşasına başlanılmış, 1,4 hektar ərazidə yerləşən, altı mərtəbəli Gəncə Dövlət Filarmoniyasının tikintisi yüksək ahənglə davam etdirilir. Şəhərin Atatürk prospektində 50 mənzilli beş mərtəbəli 4 ədəd, yeddimərtəbəli 4 ədəd, həmçinin Nizami prospekti ilə Kimyaçılar küçəsinin kəsişməsində, keçmiş toxuculuq kombinatının yataqxanasında yaşayan sakinlər üçün 3 bloklu doqquzmərtəbəli 3 bina, 1 bloklu onmərtəbəli 1 bina, ümumilikdə 240 mənzilli çoxmərtəbəli yaşayış binalarının tikintisi aparılır.

Cavadxan küçəsində «Majestik Palace» və Hacıkənd qəsəbəsində yeddimərtəbəli «ARFA» mehmanxanaları inşa olunur. Şəhər prokurorluğunun müasir tələblərə cavab verən binasının tikintisi davam etdirilir və binanın cari ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur. Bununla yanaşı, Gəncə-Şəmkir avtomobil yolunun sağ tərəfində, 4,75 hektar ərazidə məhkəmə kompleksinin tikintisinin layihə-smeta sənədi hazırlanır. Kənd təsərrüfatı məhsullarının pərakəndə və topdansatışını həyata keçirən, hər cür şəraiti olan, 17 hektar ərazidə inşası aparılan «Bazarstore» MMC-nin tikintisi sürətlə davam etdirilir. Fikrət Əmirov küçəsində beşmərtəbəli İctimai-Mədəni Tibb Mərkəzinin, Hava limanı yolu istiqamətində maşın bazarının, Nizami prospektinə beş və altı mərtəbəli Ticarət Mərkəzinin, eləcə də digər sosial və xidmət obyektlərinin tikintisi davam etdirilir. Bu obyektlərin bir çoxu sahibkarlıq subyektlərinin maliyyə vəsaiti, güzəştli kreditlər hesabına inşa olunur və əhalinin məşğulluğunun təmin olunmasında müstəsna əhəmiyyət kəsb edir. Azad sahibkarlığın və özəl bölmənin inkişafına yaradılan əlverişli şərait Gəncə şəhərinin böyüməsini, inkişaf etməsini, regional müstəvidə rolunun və nüfuzunun artmasını təmin edən mühüm amillərdən biridir.

Heydər Əliyev prospektində «Paşa Holding» tikinti şirkəti tərəfindən 2014-cü ilin fevral ayında inşasına başlanmış, ümumi sahəsi 32320 kvadratmetr olan Ticarət və Əyləncə Mərkəzinin tikintisi yekunlaşmaq üzrədir. Mərkəzin istifadəyə verilməsi 2017-ci ilin birinci rübündə nəzərdə tutulur. Onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, özünün əzəmətinə, xidmət növlərinin universallığına görə bu mərkəzin Qafqaz regionunda bənzəri yoxdur. Gəncədə görülən işlərin həcmi, miqyası o qədər böyükdür ki, çoxunun adını çəkə bilmirik.

Gəncədə prospekt və küçələrin abadlaşdırılması işləri bu gün də davam etdirilir. Bir cəhət ürəkaçandır ki, hər bir layihə həyata keçirilərkən bütün infrastruktur yenilənir, işıq dirəkləri təzələnir. İndi yaşayış binalarının həndəvərləri nura qərq olunub. Beş il öncə işıq dirəklərinin sayı şəhər üzrə 2 mindən çox deyildi. Bu gün onların sayı 32 mini ötüb keçib. Ən ucqar küçələrdə belə gecələr rahat gəzmək və istirahət etmək imkanı yaradılıb. Yaxın vaxtlarda şəhərin su problemi də öz həllini tapacaq.





2012-ci ildən «Açıq Kommunal İnfrastruktur» layihəsi çərçivəsində Gəncə şəhərində su təsərrüfatı və kanalizasiya sisteminin əsaslı şəkildə yenidən qurulması işlərinə başlanılıb. Ötən müddət ərzində ümumi işlərin, yəni içməli su xəttinin 89,1 faizi, abonent birləşmələrinin 73,3 faizi, çirkab xətlərinin 50,3 faizi yerinə yetirilib. Eyni zamanda, layihəyə əsasən, şəhərin üç istiqamətindən – Göygöl, Qızılqaya və Şəmkirçayından çəkilən magistral su xətlərinin tikintisi başa çatdırılıb. Bu xətlərin istifadəyə verilməsi ilə şəhərə saniyədə 1500 litr su daxil olacaq və bununla da Gəncə şəhərinin içməli su problemləri öz həllini tapacaq. Şəhərdə mövcud su və kanalizasiya şəbəkəsinin fasiləsiz işləməsinin təmin edilməsi məqsədilə müəyyən təmir-bərpa işləri görülüb.

Bu ilin fevral ayında cənab prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan Dövlət Aqrar Universitetinin 9 mərtəbəli, 560 yerlik tələbə yataqxanası istifadəyə verilib, yaxın vaxtlarda daha bir yataqxana istifadəyə veriləcək. Gəncə Dövlət Universitetində, Azərbaycan Texnologiya Universitetində də müasir tipli tədris korpusları tikilib, yataqxanalar əsaslı şəkildə təmir olunub. Yaradılan şərait ali məktəblərin qarşısında ciddi vəzifələr qoyur. Regionlarımız inkişaf edir, yeni sahibkarlıq subyektlərinin formalaşması prosesi gedir. Lakin açığını etiraf etmək lazımdır ki, aqrar sahədə, emal və istehsal sferasında ixtisaslı mütəxəssislər sarıdan problemlər yaşanır. Ali məktəbləri bitirib diplom alan məzunların çox cüzi hissəsi real sektora üz tutur, qalanları isə yeni çağırış və texnoloji tələblərə cavab vermədiklərinə görə ixtisasları üzrə iş tapa bilmirlər.

Gəncədə mədəniyyət ocaqları da xüsusi diqqət və qayğı ilə əhatə olunub. Çünki bu, şəhərə turist axınını təmin edən ən mühüm amillərdən biridir. Hazırda Gəncənin tarixi-memarlıq abidələrindən olan «Şah Abbas» və «Uğurlu xan» Karvansara komplekslərinin, «Qızıl Hacılı» Tarix-memarlıq abidəsinin əsaslı təmiri və bərpası, Mirzə Şəfi Vazeh Muzeyinin yaradılması istiqamətində iş gedir. Gəncədə Qafqazın ən böyük kitab evi açılıb. Bu ilin fevral ayında istifadəyə verilən, Gəncə Park-Bulvar Kompleksində yerləşən Kitab evi rəngarəng tədbirlərin keçirildiyi bir məkana çevrilib.

Gəncə bu gün qonaqlı-qaralı, zövq oxşayan, insanı ılıq nəfəsi ilə özünə doğru çəkən, gözəl, yaraşıqlı bir şəhərə çevrilib. Gəncə bu gün regional müstəvidə öz layiqli yerini tutan, sevilən, seçilən şəhərlər sırasındadır. Təkcə son bir ildə xarici qonaqların sayı 82,9 faiz artıb. 2017-ci ildə Gəncəyə gələnlərin sayı əhəmiyyətli dərəcədə artacaq, MDB-nin Mədəniyyət paytaxtı kimi Nizami yurdu bayram libasına bürünəcək, hər yerdə bir coşqu və qələbəlik yaşanacaq.

*Zülfü İLYASOV,*
*«İqtisadiyyat» qəzetinin bölgə müxbiri,*
*Gəncə şəhəri*

*Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsir göstərmişdir. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. Bu, onunla izah edilir ki, demoqrafiya sahəsindəki siyasət hər bir dövlətin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Düşünürük ki, bu sahədə dərin elmi tədqiqatları ilə tanınan Azərbaycan iqtisad elminin görkəmli nümayəndələrindən biri, AMEA-nın müxbir üzvü, professor Şahbaz Muradovun "Demoqrafik vəziyyətdə baş verən dəyişikliklər və onun nizamlanması istiqamətləri" adlı məqaləsi oxucular üçün çox maraqlı olar.*



# Demoqrafik vəziyyətdə baş verən dəyişikliklər və onun nizamlanması istiqamətləri

*(əvvəli ötən sayımızda)*



Ş.M.Muradov
Əməkdar Elm Xadimi,
AMEA-nın müxbir üzvü,
i.e.d., prof.

Nəzərə almaq lazımdır ki, doğulan uşaqlar arasında qızların sayının mütləq və nisbi surətdə azalmasının qarşısı indidən alınmazsa, bu, gələcəkdə ölkə əhalisinin cins və yaş quruluşunun pozulmasına və buradan irəli gələn bəzi sosial və demoqrafik çətinliklərin yaranmasına, əhalinin və onun əmək qabiliyyətli hissəsinin azalmasına gətirib çıxara bilər. Çünki doğum səviyyəsi konkret ərazidə məskunlaşmış əhalinin tərkibində reproduktiv qabiliyyətə malik olan fertil yaşda qadınların (15-49 yaşda) sayından və bütünlükdə, əhalinin, o cümlədən qadınların arasında onların xüsusi çəkisindən asılıdır. Rəsmi statistik məlumatlara əsasən, 2009-2015-ci illəri əhatə edən son 16 il ərzində ölkəmizdə yaşayan fertil yaşda olan (15-49 yaşda) qadınların sayı təqribən 2681 min nəfər təşkil edərək sabit qalmış və onların xüsusi çəkisi ölkə əhalisi arasında 2,0 faiz bənd azalaraq 30,0 faizdən 28,0 faizə; qadınların arasında isə 3,9 faiz bənd azalaraq 59,5 faizdən 55,6 faizə düşmüşdür. Hazırda respublikamızda yaşayan fertil yaşda olan (15-49 yaşda) qadınların hər 1000 nəfərinə düşən diri doğulan uşaqların sayı 54,8 nəfər, o cümlədən 20-24 yaşda olan qadınlar arasında 168,6 nəfər; 25-29 yaşda qadınlar arasında isə 125,0 nəfər təşkil edir. 2014-cü ilin rəsmi statistikasına əsasən, həmin ildə ölkədə diri doğulmuş uşaqların 41,2 faizi 20-24 yaşda, 30,0 faizi isə 25-29 yaşda olan qadınların payına düşür. Bütün bunlar fertil (15-49 yaşda), o cümlədən 20-29 yaşda olan ana-qadınların ölkəmizin əhalisinin təbii təkrar istehsalının təmin edilməsində nə qədər böyük rol oynadığını göstərir.

Apardığımız tədqiqatların nəticələri göstərir ki, ölkəmizdə yaranmış demoqrafik vəziyyətə, o cümlədən əhalinin doğum səviyyəsinə təsir edən ən başlıca amillərdən birini də burada yaşayan əhalinin nikah və boşanma səviyyəsi təşkil edir. Nikah kişi və qadın arasında, onların bir-birinə və uşaqlarına dair hüquq və vəzifələrini müəyyənləşdirən və cəmiyyət tərəfindən ailənin yaranması və uşaqların doğulmasının ilkin şərti, ölkədə qəbul edilmiş qayda və qanunlara uyğun olaraq nikahın bağlanıb-bağlanmamasından asılı olmayaraq ərlə-arvad arasında daha çox həqiqi və səmərəli münasibətlərin mövcud olması kimi dəyərləndirilir. Bununla bərabər nikahın hüquqi forması da cəmiyyətin diqqətindən kənarda qalmır. Çünki bu anlayış nikahdan kənar doğum hadisəsi ilə bağlıdır. Nikah münasibətlərinin, evlənənlərin rəsmi qeydiyyatının olub-olmaması, onların hüquqi cəhətdən rəsmiləşdirilməsi sosial qurum kimi ailənin vəziyyətinin mühüm ölçüsüdür. Bizim ölkəmizdə həqiqi nikah dedikdə nikahın ər və arvad tərəfindən VADQ orqanlarında rəsmən bağlanması başa düşülür. Ancaq son bir neçə onilliklər ərzində dünyanın bir çox ölkələrində nikahın rəsmiləşdirilməsindən imtinaların sayının artması və ölkənin nikah haqqında qanunvericiliyi ilə rəsmiləşdirilməmiş halda birgə yaşamaq hallarının geniş yayılması ailə böhranının dərinləşməsinə səbəb olmuşdur. Təsadüfi deyildir ki, hazırda bir sıra Şimali və Qərbi Avropa ölkələrində diri doğulan uşaqların 32,0-55,4 faizi nigahdankənar doğulan uşaqların payına düşür. Bu göstərici Niderlandda 32,0; Böyük Britaniyada 42,3-42,8; İrlandiyada 45,5-45,7; Norveçdə 51,8; Finlandiyada 40,4; Fransada 48,4; Avstriyada 36,5; İsveçdə 55,4 faizdir. Bizim respublikada isə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların diri doğulmuş uşaqların sayındakı xüsusi çəkisi 2005-2014-cü illərdə 3,5 faiz bənd azalaraq 18,4 faizdən 14,9 faizə, o cümlədən şəhər yerlərində 5,4 faiz bənd azalaraq 17,3 faizdən 11,9 faizə, kənd yerlərində isə 1,6 faiz bənd azalaraq 19,3 faizdən 17,7 faizə düşmüşdür. Ölkəmizdə bu vəziyyətin yaranması müxtəlif səbəblərlə, o cümlədən yerlərdə mövcud qanunvericilik aktlarının tələblərinə etinasızlıq göstərilməsi, bir-çox valideynlərin qızlarını təhsildən ayırıb vaxtından əvvəl ərə vermələri və bu zaman onların VADQ orqanlarına deyil, din xadimlərinə müraciət edərək kəbin kəsdirmələri, bəzi qızların isə hətta, kəbin belə kəsdirilmədən ərə verilməsi və sair səbəblərlə bağlıdır. Hazırda dünya miqyasında orta hesabla kişilər ən tezi 25-29 yaşında, qadınlar isə 20-24 yaşında ailə qururlar. Ancaq nikah yaşı ayrı-ayrı ölkələrdə bir-birindən kəskin surətdə fərqlənir və dünyanın bütün ölkələrində onun minimum həddi qanunla nizamlanır. Bizim ölkədə isə nikah yaşı oğlanlar üçün 18, qızlar üçünsə 17 yaş olaraq müəyyənləşdirilmişdir. Bütün başqa ölkələrdə olduğu kimi, bizim ölkəmizdə də sosial-iqtisadi və mədəni inkişaf sahəsində, xüsusilə də qadınların mədəni-texniki, təhsil, peşə-ixtisas, məşğulluq səviyyəsində və sair baş verən müsbət dəyişikliklər nəticəsində nikaha daxil olmaq yaşı da tədricən artmışdır. Belə ki, əgər ölkəmizdə bütün ərdə olan qadınlar arasında 18 yaşından aşağı olanların xüsusi çəkisi 1940-cı ildə 32,2 faiz; 1985-ci ildə 9,0 faiz təşkil etmişdirsə, bu göstərici azalaraq 1999-cu ildə 1,2 faizə, 2009-cu ildə isə 0,3 faizə düşmüşdür. Keçən əsrin 60-cı illərinin axırlarında ölkəmizdə qızların həm bioloji və fiziki inkişafı, həm də gələcək nəslin fiziki və zehni cəhətdən inkişaf etməsi və ailə münasibətlərinin möhkəmləndirilməsi, daha doğrusu, qızların ərə getməkdən və uşağa baxmaqdan öncə öz vaxtlarını təhsil almağa, xüsusi peşə və ixtisasa yiyələnməyə və mədəni-texniki səviyyələrini yüksəltməyə yönəltməsinə imkan yaratmaq məqsədilə onların nikaha daxil olmaq yaşı 16 yaşdan 18 yaşa qaldırılmışdır. Ancaq sonralar, yəni AXCP hakimiyyəti dövründə bu yaş həddi heç bir elmi əsası olmadan 18 yaşdan 17 yaşa endirilmiş və hazırda onun yenidən 18 yaşa qaldırılması müzakirə obyektinə çevrilmişdir. Nəzərə alsaq ki, BMT-nin konvensiyasında qızların nikaha daxil olması 18 yaş kimi götürülmüş və Azərbaycan Respublikası da həmin konvensiyaya qoşulmuşdur, onda qızların nikah yaşının 18 yaş olaraq müəyyənləşdirilməsi zəruridir və o, heç bir mübahisə obyektinə çevrilməməlidir.

Son dövrlərdə ölkəmizin bəzi regionlarında qızların erkən ərə verilməsinə baxmayaraq, bütünlükdə götürüldükdə 1991-2014-cü illərdə respublikada nikaha daxil olanların orta yaşı kişilər arasında 26,8 yaşdan 28,6 yaşa, qadınlar arasında isə 23,3 yaşdan 24,1 yaşa qalxmışdır. Bu göstərici 1-ci nikaha daxil olanlar üçün müvafiq surətdə kişilər üzrə 26,2 yaşdan 27,6 yaşa, qadınlar üzər isə 22,9 yaşdan 23,7 yaşa yüksəlmişdir. O ki, qaldı respublikada nikah və boşanmaların vəziyyətinə, rəsmi statistikanın məlumatlarına əsasən, bütünlükdə götürüldükdə müstəqillik illərində həm nikahların, həm də boşanmaların sayı son 25 il ərzində (1991-2014-cü illərdə) artıb-azalmaqla müşahidə olunmuşdur. Bu proses dünyanın əksər ölkələri üçün, o cümlədən Azərbaycan Respublikası da daxil olmaqla bütün MDB dövlətləri üçün xarakterik hal olmuşdur. İşin əvvəlində qeyd etdiyimiz kimi, həm müstəqilliyimizin bərpası ərəfəsindəki illərdə (1988-1990-cı illərdə), həm də müstəqilliyimizin ilk dövründə (1991-1992-ci illərdə) ölkəmizdə baş vermiş ictimai-siyasi və sosial-iqtisadi hadisələrlə əlaqədar olaraq müxtəlif bəhanələrlə nikaha daxil olmaq və boşanmaq hadisələri baş verdiyindən həmin illərdə nikah və boşanmaların sayında süni surətdə onların artırılmasına yol verildiyindən sonrakı illərdə baş vermiş nikaha daxilolmaların və boşanmaların sayının həmin illərlə müqayisə edilməsi əsl həqiqəti əks etdirmir. Buna görə də həmin hadisə və proseslərdə baş vermiş dəyişikliklərin müqayisəsini ölkəmizdə siyasi sabitliyin yarandığı və iqtisadi inkişafın dinamik xarakter almağa başladığı 1996-cı ilin məlumatlarını əsas kimi götürməklə həyata keçirmək daha doğru olardı. Məsələyə bu baxımdan da yanaşdıqda aydın olur ki, 1996-cı ildən başlayaraq ölkəmizdə nikahların sayı ilə yanaşı, boşanmaların da sayı tədricən artmağa başlamış və bu zaman nikahların artım sürəti boşanmaların artım sürətini əhəmiyyətli dərəcədə üstələmiş, 2003-cü ildən sonra isə əksinə, ikincilərin artım sürəti birinciləri eyni qaydada üstələməyə başlamışdır. Belə ki, əgər 1996-2003-cü illərdə ölkədə nikaha daxilolmaların sayı 45,3 faiz artaraq 38,6 mindən 56,1 minə, boşanmaların sayı isə cəmi 19,6 faiz artaraq 5,6 mindən 6,7 minə qalxmışdırsa, 2004-2014-cü illərdə nikahların sayı 36,5 faiz artaraq 62,2 mindən 84,9 minə, boşanmaların sayı isə 75,4 faiz (1,7 dəfədən çox) artaraq 6,9 mindən 12,1 minə yüksəlmişdir.



Boşanma və ya nikahın pozulması ərlə arvadın hər ikisinin sağlığı vaxtı qanunvericilik aktları əsasında məhkəmənin qərarı ilə həyata keçirilən və bir çox kompleks sosial-iqtisadi, demoqrafik, etnik, sosial-psixoloji, mənəvi-əxlaqi və sair amillərin təsiri altda baş verən fenomen sosial-demoqrafik proses olub, cəmiyyəti narahat edən mühüm hadisə kimi daim diqqət mərkəzindədir. Aparılan tədqiqatların nəticələri göstərir ki, hazırda boşanma hallarının artmasının əsas səbəbləri hələ də qalmaqda olan bəzi iqtisadi çətinliklər, ərlə arvadın intellektual inkişaf səviyyəsindəki fərqlər, qadın və kişinin xəstəliyi, yetkinlik yaşına çatmayanlarla evlənmək hallarının mövcud olması, sonsuzluq, qadınlara qarşı zorakılıq, ailədaxili münaqişələr, ailənin məhəbbətə əsaslanmadan qurulması, xəyanət, qadınla kişinin xasiyyətlərinin uyğun gəlməməsi, qadınların iqtisadi cəhətdən müstəqil olması və sairdən ibarətdir. Dünyanın əksəriyyət ölkələrində rəsmi statistika boşanmaların sayı haqqında dəqiq məlumat verməsə də, cəsarətlə demək olar ki, hazırda dünyanın bütün ölkələrində bu göstərici sürətlə artmaqdadır.

Demoqrafik hadisə və proseslərdəki (doğum, ölüm, təbii artım, boşanma və sair) dəyişiklik və meyillər bilavasitə ailədə baş verir və sosial amillərin həmin proseslərə təsiri də onun vasitəsilə həyata keçirilir. Məhz buna görə də müasir cəmiyyətdə əsas funksiyası uşaq doğulması, gənc nəslin tərbiyəsindən ibarət olan və əhalinin təkrar istehsalının təşkilinin forması, cəmiyyətin ilk yaranma özəyi kimi çıxış edən ailənin dağılması ilə nəticələnən boşanma hallarının artmasının az da olsa, qarşısının alınması üçün ilk olaraq onu yaradan səbəblərin dərindən tədqiq edilib öyrənilməsi lazımdır. Çünki ailə əhalinin təbii təkrar istehsalı və nəslin davam etdirilməsi ilə yanaşı, həm də böyüməkdə olan nəsillərin cansağlığının möhkəmləndirilməsində və tərbiyəsində, cəmiyyətin iqtisadi və sosial tərəqqisinin təmin edilməsində böyük rol oynayır. İnsanın xarakteri və onun əməyə, ən başlıcası mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır. Yeni cəmiyyətin qurulması, hər şeydən əvvəl, möhkəm, mənəvi və əxlaqi cəhətdən sağlam ailələrin mövcud olmasını tələb edir. Ailədəki uşaqların sayı təkcə ərlə arvadın şəxsi arzusu ilə deyil, onları əhatə edən mühitlə, həyat şəraiti ilə də sıx surətdə bağlıdır və ailədə əhalinin təkrar istehsalı prosesinə bu şəraitin hamısı birlikdə təsir göstərir. Bütün bunlar isə o deməkdir ki, ailənin dağılmasına səbəb olan boşanmaya sadəcə bir demoqrafik hadisə kimi deyil, ailənin cəmiyyətdə oynadığı rol baxımından yanaşılmasına ehtiyac var. Lakin bütün bunlara baxmayaraq, son vaxtlaradək ölkəmizdə sosial-iqtisadi münasibətlər sistemində ailənin rol və yerinin müəyyən edilməsi, onun yerinə yetirdiyi təsərrüfat-məişət və iqtisadi funksiyalar kompleks şəkildə tədqiq edilməmiş və ya çox az öyrənilmişdir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları son illərdə Nazirlər Kabinetinin iclaslarında və başqa yığıncaqlardakı çıxışlarında dəfələrlə ölkəmizdəki demoqrafik inkişafla bağlı məsələlərə toxunmuş və 9 noyabr 2015-ci il tarixdə AMEA-nın 70 illik yubileyinə həsr edilmiş AMEA-nın Ümumi Yığıncağındakı çıxışında demişdir: "Hesab edirəm ki, bizim alimlərimiz demoqrafik vəziyyətlə bağlı daha da fəal işləməlidirlər". Əlbəttə, bu, təsadüfi deyilməmişdir. Bu, dövlət başçımız tərəfindən həmin problemlərlə məşğul olan biz alimlərə edilmiş çağırışdır və bizim qarşımızda qoyulmuş dövlət əhəmiyyətli vəzifədir. Bu da bir həqiqətdir ki, demoqrafik inkişaf sahəsində ölkəmizdə əldə edilmiş bütün müsbət nəticələrə baxmayaraq, başqa sahələrdə olduğu kimi, demoqrafik inkişaf sahəsində də müəyyən problemlər var və onların həlli yolları demoqrafiya sahəsində çalışan alimlərimizlə ictimai elmin başqa sahələrində çalışan alimlərimizin birgə səyi və iştirakları ilə araşdırılıb müəyyən edilməli və müvafiq dövlət və hökumət orqanlarına təqdim etmək üçün elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işlənib hazırlanmalıdır.

Hazırda ölkəmizdə demoqrafik vəziyyətin hələlik müsbət olmasına baxmayaraq, doğum səviyyəsinə təsir edən əsas amillərdən biri kimi son illərdə əhalinin tərkibində reproduktiv qabiliyyətdə olan fertil yaşda (15-44 yaşda) qadınların xüsusi çəkisinin tədricən və dönmədən azalmağa doğru meyil etməsi qanunauyğun hal kimi çoxuşaqlı ailə modelindən azuşaqlı ailə modelinə keçidin sürətlənməyə başlanması; əhalinin geniş təkrar istehsalının təmin olunması üçün hər bir ailədən azı 3 nəfər uşağın doğulub tərbiyə edilməsi zərurət təşkil etdiyi halda; 2000-2014-cü illəri əhatə edən son 15 il ərzində ailələrdə üçüncü və sonrakı növbələrdə doğulan uşaqların bütünlükdə doğulmuş uşaqlar arasındakı xüsusi çəkisinin azalaraq ölkə üzrə 25,0 faizindən 18,6 faizə, o cümlədən şəhər yerlərində 19,6 faizdən 19,4 faizə düşməsi onu deməyə əsas verir ki, hazırkı münasibət demoqrafik vəziyyəti qoruyub saxlamaq və əhalinin artımının daha da güclü olmasını təmin etmək üçün stimullaşdırıcı tədbirlər sistemi işlənib hazırlanmalı və həyata keçirilməlidir.

Nəzərə almaq lazımdır ki, əhalinin və demoqrafik proseslərin kəmiyyət-keyfiyyət dəyişiklikləri müəyyən qanunauyğunluqlara əsaslandığından, kompleks xarakter daşıyan sosial-iqtisadi, demoqrafik, siyasi, etnik və sair amillərlə yanaşı, həm də sosial-psixoloji və fizioloji amillərə söykəndiyindən onun artımını ayrılıqda götürülmüş az bir zaman kəsiyində həll etmək olmaz. Bunun üçün ulu öndərimiz Heydər Əliyevin 28 dekabr 1998-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın demoqrafik inkişaf konsepsiyası" əsas götürülməklə özündə kompleks tədbirlər sistemini və müasir dövrün tələblərini əks etdirən əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Yeni Dövlət Proqramının işlənib hazırlanması zəruridir.

*(davamı gələn sayımızda)*

# Azercell "İnsan Resursları Forumu"nda təmsil olunan yeganə telekommunikasiya şirkətidir

Bakıda "İnsan Resursları Forumu-2016" adlı beynəlxalq forum keçirilib. Toplantı insan resurslarının idarə edilməsi proseslərinin avtomatlaşdırılmasına həsr olunub. Forumun məqsədi insan resursları idarəçiliyi sahəsində beynəlxalq təcrübənin yerli şirkətlərdə tətbiqinin keyfiyyətinin yaxşılaşdırılmasına töhfə verməkdir. Həmçinin, Azərbaycanın elm, biznes və ümumi idarəetmə sahəsində insan qaynaqlarının idarə edilməsinə olan marağı artırmaq, bu sahənin əhəmiyyətini strateji mövqeyə çatdırmaqdan ibarətdir.

Beynəlxalq miqyaslı tədbirdə telekommunikasiya sahəsini təmsil edən yeganə şirkət Azercell Telekom MMC olub. İki paneldən ibarət forumda tanınmış yerli və beynəlxalq qurumların rəhbərləri çıxış ediblər. Forumun 10 əsas spikerindən biri qismində Azercell-in prezidenti Vahid Mürsəliyev çıxış edib.

Azercell prezidenti bildirib ki, yarandığı ilk dövrlərdən etibarən Azercell-də İnsan Qaynaqlarının idarə olunmasında beynəlxalq təcrübədən yararlanıb. Şirkətin bu sahədə apardığı bütün proseslər, mövcud sistem ən müasir beynəlxalq təcrübəyə uyğundur.

V.Mürsəliyev qeyd edib ki, bazarda stabil və möhkəm mövqeyə malik olan Azercell qlobal şirkətin bir hissəsi kimi beynəlxalq standartlara uyğun fəaliyyət göstərir. Bu, Azercell əməkdaşları üçün şirkətdaxili və beynəlxalq karyera imkanları, peşəkar inkişaf üçün əlverişli şərait, təcrübə mübadilələri imkanları yaradır. Məsələn, Azercell-də yetişmiş mütəxəssislər indi Stokholmda, TS Avrasiya ofisinin yerləşdiyi İstanbulda, Özbəkistanda, Gürcüstanda expat olaraq fəaliyyət göstərirlər. Digər tərəfdən, Azercell-ə ölkəmizin ən yaxşı kadrları cəlb edilir. Hazırda şirkətin elə əməkdaşları var ki, onlar öz sahəsində dünya üzrə 6-7 mütəxəssisdən biri sayılırlar.

Bir neçə ay öncə keçirilən İşəgötürən brendi araşdırmasının nəticəsində Azercell bazarda mövcud şirkətlər arasında 3 ən yaxşı işəgötürəndən biri hesab olunub. Azercell hələ 2006-cı ildən Investors in People - İnsana Sərmayə Beynəlxalq Standartına uyğunluq sertifikatı əldə edib və hazırda Gümüş IIP sertifikatına sahibdir. Azercell TS Avrasiya üzrə əməyin mühafizəsinə dair OHSAS-sertifikasiyadan keçən 3 şirkətdən biridir.

Cənab Vahid Mürsəliyev şirkətdə mövcud olan əməkdaşlıq və qarşılıqlı yardım mühitinin daim yeni nailiyyətlər əldə etməyə imkan verdiyini vurğulayıb. Bu baxımdan, 2003-cü ildə yaradılan Azercell Akademiyası işçi heyətin inkişafında çox mühüm rol oynayıb. Burada həmçinin yerli bazarda bir sıra dövlət və özəl strukturlara təlimlər keçirilir.

Azercell Azərbaycanda ilk şirkətlərdəndir ki, əməkdaşlarına və onların ailə üzvlərinə tibbi sığorta təmin edib. Azərbaycanda telekommunikasiya bazarının lideri nəinki öz əməkdaşları, o cümlədən cəmiyyətin də inkişafına faydalı olan layihələr həyata keçirir. Bütün bu fəaliyyətlərin nəticəsi olaraq Azercell əməkdaşlarının şirkətə bağlılığı daim yüksək olaraq qalır. Ötən ilki sorğunun nəticələrinə görə, bu göstərici 87% təşkil edib.



## Vergilər naziri Fazil Məmmədov Göygöldə vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə köməklik göstərirlər. Bu məqsədlə noyabrın 11-də vergilər naziri Fazil Məmmədov Göygöl şəhərində Göygöl, Gəncə, Samux, Goranboy və Daşkəsən rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən bir sıra çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.

## Vergi orqanlarına daxil olmuş vətəndaş müraciətləri



2016-cı ilin oktyabr ayı ərzində vergi orqanlarına 7152 müraciət daxil olub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 30,7% azdır. Müraciətlərin 92,3%-i ərizə, 7,6%-i şikayət, 0,1%-i isə təklifdir. Onların 36%-i müxtəlif arayışların alınması, 31,1%-i kameral vergi yoxlamaları, 6,1%-i vergi borcları, 2,4%-i vergidən yayınma və dividendlərin verilməsi, 2%-i səyyar vergi yoxlamaları, 1,1%-i vergi qanunvericiliyinin tətbiqi, 1,1%-i ƏDV, 1%-i nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 0,7%-i qəbul, 0,5%-i işlə təmin edilmək, 0,5%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,1%-i korrupsiya hüquqpozmaları, 0,5%-i operativ vergi nəzarəti tədbirləri, 16,9%-i isə digər məsələlərlə bağlı olub.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 60%-i müsbət həll olunub. Hesabat dövründə vergi orqanlarında ümumilikdə 594 vətəndaş qəbul edilib, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

# Azərbaycan vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək reytinqə layiq görülüb



**Azərbaycan Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamı vergi orqanları qarşısında mühüm vəzifələr müəyyən edib. Vergilər nazirinin müşaviri Riyad Hüseynovla müsahibənin əsas mövzusu nazirliyin beynəlxalq sahədə apardığı işlər barədədir.**

**- Riyad müəllim, ölkədə aparılan vergi islahatları çərçivəsində beynəlxalq sahədə görülən işlərin ümumi istiqamətlərini necə səciyyələndirmək olar?**

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəffaflığın artırılması istiqamətində apardığı məqsədyönlü siyasətə, vergi orqanları qarşısında qoyulmuş tələblərə və tapşırıqlara uyğun olaraq, ölkəmiz 2013-cü ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumu»na üzv olmuşdur. O vaxtdan bəri vergi məsələləri üzrə xarici ölkələrlə aparılan məlumat mübadiləsinin təkmilləşdirilməsi və beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması istiqamətində Vergilər Nazirliyi tərəfindən aparılan işlər artıq öz müsbət nəticələrini verməkdədir.

Qeyd etmək lazımdır ki, genişmiqyaslı islahatlar və konkret hədəflərə yönəlmiş proqramlar nəticəsində ölkəmizdə artıq müasir beynəlxalq standartlara cavab verən vergi xidməti formalaşdırılıb. Azərbaycanda çevik və səmərəli vergi siyasətinin həyata keçirilməsi üçün vahid qanunvericilik bazası yaradılıb və qabaqcıl ölkələrin vergi qanunvericiliyi ilə uzlaşdırılıb. Milli vergi sistemi fiskal məqsədlərlə yanaşı, ölkədə sahibkarlığın inkişafına, özəl sektorun dəstəklənməsinə və investisiya fəaliyyətinin stimullaşdırılmasına, eləcə də vergi mexanizmləri vasitəsilə iqtisadi inkişafın təmin edilməsinə dəstək verir. Hazırda dünyanın qabaqcıl ölkələrində tətbiq olunan əksər vergi xidmətləri ölkəmizdə fəaliyyət göstərən vergi ödəyicilərinə də təqdim edilir.

Dövlət başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamı da Azərbaycanın vergi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və vergi inzibatçılığının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması istiqamətində bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu tədbirlərə vergitutma bazasının genişləndirilməsi; vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının daha da təkmilləşdirilməsi; vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması; elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi; vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması; riskin qiymətləndirilməsi sisteminin yaradılması; vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi kimi mühüm vəzifələr aiddir. Hazırda Vergilər Nazirliyi sərəncamın icrası ilə bağlı genişmiqyaslı işlər aparır.

Şəffaflığın artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə indiyədək ölkəmizdə kompleks tədbirləri əhatə edən fəaliyyət planları uğurla icra edilib, vergi qanunvericiliyi və inzibatçılığının beynəlxalq standartlar nəzərə alınmaqla təkmilləşdirilməsi, innovativ və geniş elektron xidmətlər sisteminin yaradılması təmin olunub. Bütün bunlar isə, öz növbəsində, vergi sistemində idarəetmə və nəzarət mexanizmlərinin səviyyəsini yüksəltməyə, vergi münasibətlərinin tənzimlənməsi sahəsində çevik siyasət həyata keçirməyə, ölkəmizin investisiya cəlbediciliyinin yüksəldilməsinə, beynəlxalq təşkilatların və xarici dövlətlərin müvafiq qurumları ilə sıx əməkdaşlıq əlaqələri yaradılmasına və səmərəli məlumat mübadiləsi sisteminin qurulmasına imkan verib.

Sərəncamda nəzərdə tutulan tədbirlərin mühüm bir hissəsi beynəlxalq təcrübədə tətbiq edilən mütərəqqi mexanizmlərin milli vergi sistemində tətbiq olunması, eləcə də qlobal vergi trendlərinə uyğunlaşaraq beynəlxalq əməkdaşlığın genişləndirilməsi kimi məsələləri əhatə edir. Məsələn, sərəncamda xərclərin süni şəkildə artırılması (transfer qiymətləndirmə) hallarını aradan qaldırmaq məqsədilə qanunvericilik bazasının yaradılması, şirkətlərin gəlir və xərclərinin düzgün müəyyən edilməsi üçün ölkə hüdudlarından kənarda, o cümlədən vergi sığınacağı hesab olunan dövlətlərdə və ya ərazilərdə (offşor zonalarda) təsis edilmiş şəxslər tərəfindən həyata keçirilən əməliyyatlar üzrə əldə edilən gəlirlərin transfer qiymətləri tətbiq olunmaqla vergiyə cəlb edilməsi üçün qanunvericiliyə dəyişiklik olunması, Azərbaycan Respublikası ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin inzibatçılığı qaydalarının sadələşdirilməsi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Qlobal Forumu çərçivəsində vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək beynəlxalq reytinqin əldə edilməsi və bu reytinqi daimi saxlamaq məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi, ölkə hüdudlarından kənarda əldə edilmiş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün digər dövlətlər arasında maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması və s. kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

**- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən hazırlanmış «Vergitutma sahəsində məlumat mübadiləsi və şəffaflıq standartı» barədə məlumat verməyinizi istərdik.**

- Ölkə başçısının sərəncamından irəli gələn vəzifələrdən biri də vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək beynəlxalq reytinqin əldə edilməsidir. Son dövrlərdə beynəlxalq vergitutma sahəsində xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri vergi orqanları arasında məlumat mübadiləsinin genişləndirilməsi və bu sahədə formalaşmış beynəlxalq standartların tətbiqinin təmin edilməsidir. BMT, G8, G20 ölkələri, Avropa Şurası və Avropa İttifaqı tərəfindən tövsiyə edilən, OECD tərəfindən hazırlanmış «Vergitutma sahəsində məlumat mübadiləsi və şəffaflıq standartı» OECD-nin Model Vergi Konvensiyasının 26-cı maddəsində və 2002-ci il tarixli Vergi məsələləri üzrə Məlumat Mübadiləsi Model Sazişində əksini tapıb. Bu standartın tətbiqinə nail olmaq məqsədilə 2009-cu ildə OECD-nin Vergi Siyasəti və İnzibatçılığı Mərkəzi nəzdində «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum» yaradılıb. Artıq dünyanın 134 ölkəsi 2010-cu ildən faktiki olaraq müstəqil təşkilat kimi fəaliyyət göstərən bu qurumun üzvüdür. Bundan əlavə, Forumda 9 beynəlxalq və regional təşkilat - BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, İnter-Amerika İnkişaf Bankı, Asiya İnkişaf Bankı və Avropa Birliyi Ölkələrinin Katibliyi müşahidəçi qismində təmsil olunurlar. Foruma üzvlük dövlətlərin, ilk növbədə, məlumat mübadiləsi haqqında müqavilələr üzrə danışıqlar aparmaq, təmsil olunan beynəlxalq maliyyə qurumları ilə məlumat mübadiləsi etmək imkanlarını artırır. Forum vergi məqsədləri üçün şəffaflığın artırılması üzrə zəngin ekspertiza mənbəyidir. Qlobal Forumun qaydalarına əsasən, hər bir üzv ölkə iki mərhələdən ibarət qiymətləndirmə prosesinə cəlb olunur. Birinci mərhələdə qanunvericiliyin beynəlxalq standartlara uyğunluğu, ikinci mərhələdə isə həmin qanunvericiliyin praktikada tətbiqi səviyyəsi qiymətləndirilir. Hər iki mərhələnin nəticələri əsasında ölkənin beynəlxalq standartlara uyğunluq səviyyəsi müəyyənləşdirilir.

**- Azərbaycan Respublikası 2013-cü il fevralın 26-da Qlobal Foruma üzv olmaqla məlumat mübadiləsi və şəffaflıq sahəsində beynəlxalq razılaşdırılmış standartın tətbiqi öhdəliyini qəbul edib...**

- Azərbaycan üzrə Qiymətləndirmənin birinci mərhələsinə ölkəmizdə vergi məqsədləri üçün məlumat mübadiləsinin tətbiqi mexanizmi üzrə qanunvericiliyin tələblərinə müsbət rəy verilərək, ölkəmizin qiymətləndirmənin birinci mərhələsini uğurla keçdiyi qərara alınıb. İkinci mərhələdə isə Qiymətləndirmə Qrupunun üzvləri mart ayında ölkəmizə səfər ediblər. Səfər müddətində ekspertlər məlumatların mübadiləsi üzrə səlahiyyətli dövlət qurumlarının nümayəndələri ilə görüşlər keçirib, vergi inzibatçılığında şəffaflıq prinsiplərinin gözlənilməsi ilə əlaqədar görülmüş işlər və məlumat mübadiləsi prosesi ilə tanış olub, Vergilər Nazirliyində məlumatların təhlükəsizliyinin beynəlxalq standartlar səviyyəsində qorunması sistemini nəzərdən keçiriblər. Ölkə üzrə yekun hesabat 2016-cı ilin 26-30 sentyabr tarixlərində Fransanın Paytaxtı Paris şəhərində Qiymətləndirmə Qrupunun (PRG) 24-cü iclası zamanı geniş müzakirə edilib. Hesabatın müzakirəsi Qlobal Forumun prezidenti, katibliyin rəhbəri, Qiymətləndirmə Qrupunun 30 ölkənin nümayəndələrindən təşkil olunmuş üzvləri, qiymətləndiricilər və Vergilər Nazirliyinin nümayəndə heyətinin iştirakı ilə keçirilib.

Müzakirələr zamanı Vergilər Nazirliyi və xarici dövlətlərin aidiyyəti orqanları ilə aparılan məlumat mübadiləsinin səmərəliliyinin obyektiv qiymətləndirilərək hesabatın qəbul edilməsi üçün zəruri olan əlavə məlumatlar təqdim edilib. 2016-cı ilin sentyabr ayının 30-da Azərbaycan üzrə ölkə hesabatı təsdiq edilib. Bununla da Azərbaycan Vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə «Əsasən uyğundur» reytinqinə layiq görülüb. Qlobal Forumun qaydalarına uyğun olaraq, Azərbaycan Respublikası üzrə yekun reytinq 31 oktyabr 2016-cı il tarixdə rəsmən bəyan olunub və noyabr ayının 4-də dərc edilib.

**- Azərbaycanın OECD-nin Vergi məqsədləri üçün şəffaflıq və məlumat üzrə Qlobal Forumu çərçivəsində əldə etdiyi reytinq balının müsbət cəhətləri və faydası nədən ibarətdir?**

- Qlobal Forum çərçivəsində Azərbaycan Respublikasının qazandığı yüksək reytinq balı ölkəmizdə şəffaf, beynəlxalq standartlara uyğun və bütün tərəfdaş ölkələrlə səmərəli məlumat mübadiləsinin aparılması imkanını təmin edən müasir vergi sisteminin mövcudluğunun obyektiv əyani sübutudur. Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum hazırda vergitutma ilə bağlı məsələlərdə ixtisaslaşmış ən böyük təşkilat olmaqla yanaşı, onun hazırladığı standartlar ölkələrin vergi məsələlərində şəffaflığın ən mötəbər göstəricilərindən hesab edilir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Qlobal Forumun üzvü olan 137 dövlət arasında yüksək reytinq almış ABŞ, Avstriya, Almaniya, İtaliya, İsrail, Niderland, Macarıstan, Polşa, Braziliya, Rusiya, Malayziya kimi 77 ölkədən biridir. Qlobal Forumun üzvləri olan bir sıra ölkələr isə hələlik yüksək reytinq qazana bilməyiblər.

**- Qlobal Forumun standartlarından və qiymətləndirmə qaydalarından hansı sahələrdə istifadə olunur?**

- Bu qaydalar müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən vergi sığınacaqlarının və vergi məqsədləri üçün əməkdaşlıq etməyən qeyri-şəffaf ölkələrin «qara siyahı»ları tərtib edilərkən geniş istifadə olunur və bu zaman əsas göstəricilərdən biri kimi Qlobal Forum çərçivəsində üzv dövlətlərin əldə etdikləri reytinq ballarına istinad edilir.

Azərbaycanın yüksək reytinqə layiq görülməsi ölkəmizə bir sıra üstünlüklər qazandırır. Bunların sırasında, ilk növbədə, əlverişli investisiya mühitinin və şəffaflığın təminatı fonunda beynəlxalq arenada ölkənin nüfuzunun yüksəlməsi imkanları qeyd olunmalıdır. Azərbaycanın investisiya potensialının dünyada tanıdılması ilə xarici investisiya axınının stimullaşdırılması, eləcə də iri maliyyə mərkəzlərinin təmsil olunduğu unikal bir Forumda ölkəmizin etibarlı partnyor kimi qəbul edilməsi xüsusi əhəmiyyət daşıyır. Bütün bunlar Azərbaycanın beynəlxalq səviyyədə məlumat mübadiləsi üzrə etibarlı tərəfdaş profilini daha da yüksəldir və mötəbər beynəlxalq təşkilatların ölkəmizdə həyata keçirilən layihələrə dəstəyini təmin edir.

**- Vergilər Nazirliyi qlobal vergi əməkdaşlığının fəal iştirakçısıdır. Beynəlxalq təşkilatlarla əməkdaşlığın hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?**

- Vergilər Nazirliyi son illərdə beynəlxalq əlaqələrini əsaslı şəkildə genişləndirib. Əməkdaşlıq edilən təşkilatların və qurumların coğrafiyası da bunu əyani təsdiq edir. Hazırda nazirliyin Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA), OECD, Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA), Avropa İttifaqı, MDB vergi orqanları rəhbərlərinin Koordinasiya Şurası, Amerikadaxili Vergi Administrasiyaları Mərkəzi (CIAT), BMT, İslam Ölkələrinin Vergi Administrasiyaları Assosiasiyası (ATAIC), Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Birliyi və digər təşkilatlarla səmərəli əməkdaşlıq münasibətləri var. İstər bu beynəlxalq qurumlar, istərsə də qabaqcıl dövlətlərin vergi orqanları ilə ikitərəfli əməkdaşlıq istiqamətləri ölkəmizin strateji hədəfləri, vergi sisteminin prioritetləri, eləcə də beynəlxalq vergitutma sahəsində mövcud tendensiyalar nəzərə alınmaqla müəyyən edilir.

Vergilər Nazirliyi vergitutma sahəsində əksər aparıcı və nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində dünyada mövcud olan ən mütərəqqi təcrübələrin öyrənilməsi və ölkəmizdə tətbiq olunması, insan resurslarının peşəkarlıq səviyyəsinin artırılması üçün bu təşkilatların verdiyi imkanlardan maksimum yararlanmağa çalışır. Bir müddət əvvəl İtaliya Azərbaycanı məlumat mübadiləsi üzrə tərəfdaşların «Ağ siyahı»sına daxil edib. Bu, İtaliya bazarında çalışan Azərbaycan rezidentlərinin geniş vergi güzəştləri əldə etməsi deməkdir.

Dünya Bankının 190 ölkənin biznes mühitinin qiymətləndirilməsi əsasında hazırladığı «Doing Business 2017» hesabatı ölkəmizin vergi sisteminin inkişafını xarakterizə etmək, həmçinin görülən işlərə qiymət vermək baxımından mühüm əhəmiyyət daşıyır. Hesabatda Azərbaycan birbaşa Vergilər Nazirliyinə aidiyyəti olan «Biznesə başlama» meyarı üzrə dünya ölkələri arasında 5-ci, «Vergilərin ödənişi» meyarı üzrə isə 40-cı yeri tutur. Mötəbər beynəlxalq qurumun milli vergi sisteminə verdiyi rəy ölkəmizdə aparılan səmərəli işlərin müsbət nəticəsi kimi də dəyərləndirilə bilər.

**- Azərbaycan Respublikasının digər dövlətlərlə bağladığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər ölkəmizin iqtisadi və investisiya əməkdaşlığı sahəsində əsas tərəfdaşlarını tam əhatə edirmi?**

- Son illər ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər şəbəkəsi əhəmiyyətli dərəcədə genişlənib. Azərbaycanın imzaladığı 51 sazişdən 47-si artıq qüvvəyə minib, qalanları isə müvafiq prosedurlar tamamlandıqdan sonra qüvvəyə minəcək. Təbiidir ki, bu müqavilələr hazırlanarkən, ilk növbədə, ölkəmizin iqtisadi əlaqələrinin güclü olduğu dövlətlərə xüsusi diqqət yetirilir. Müqavilələrdən 23-ü Avropa İttifaqına üzv ölkələrlə bağlanıb, digər müqavilələr isə respublikamızın əsas xarici ticarət tərəfdaşlarını, iqtisadi əlaqələrimizin mövcud olduğu və ya iqtisadi maraq doğuran dövlətləri əhatə edir.

Bu gün beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artması, iqtisadi və ticarət əlaqələrinin sürətlə genişlənməsi mövcud sazişlər şəbəkəsinin daha da genişləndirilməsini və yeni tərəfdaşların cəlb edilməsini obyektiv zərurətə çevirir. Hazırda Vergilər Nazirliyi bu istiqamətdə sistemli iş aparır. İkiqat vergitutmanın aradan qaldırılması barədə beynəlxalq sazişlərin imzalanması ölkədə əlverişli investisiya mühitinin yaradılmasına birbaşa təsir göstərməklə yanaşı, həm də vergidən yayınma hallarının qarşısının alınması məqsədilə vergi orqanlarının bir-birinə qarşılıqlı yardım göstərməsi üçün əlavə imkanlar yaradır.

**- Gələcəkdə daha hansı ölkələrlə belə sazişlərin imzalanması nəzərdə tutulur?**

- İspaniya, Malta, İsveç və İordaniya ilə imzalanmış analoji sənədlər Azərbaycan Respublikası tərəfindən təsdiq edilib və qarşı tərəflərdən də dövlətdaxili prosedurlar bitdikdən sonra qüvvəyə minəcək. Bunlardan əlavə, müqavilələrin layihələri üzrə Mərakeş, İrlandiya, İsrail, Danimarka, Sinqapur və Slovakiya ilə razılıq əldə edilib və gələcəkdə həyata keçiriləcək rəsmi səfərlər və ya görüşlər zamanı bu sənədlərin də imzalanması nəzərə tutulur. Türkmənistan, Portuqaliya, Oman, Albaniya, Qırğızıstan, Hindistan, Suriya, Banqladeş və Malayziya ilə də ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin razılaşdırılması üzrə işlər aparılmaqdadır.

**- Yəqin ki, xarici dövlətlərlə əməkdaşlığın əhatə dairəsi dediklərinizlə məhdudlaşmır...**

- Hazırda vergi məlumatlarının mübadiləsi bütün dünyada müzakirə olunan aktual məsələlərdəndir. Məlumat mübadiləsi ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin müvafiq müddəalarına, xüsusi sazişlərə, o cümlədən çoxtərəfli sazişlərə əsasən həyata keçirilə bilər. Son dövrlərdə vergi məsələlərində şəffaflıq, məlumat mübadiləsi və beynəlxalq əməkdaşlıq sahəsində səmərəliliyin artırılması istiqamətində gedən qlobal proses və tendensiyalar nəzərə alınmaqla, Vergilər Nazirliyi tərəfindən avtomatik məlumat mübadiləsi və vergilərin yığılmasında yardım haqqında Anlaşma Memorandumunun model layihəsi hazırlanıb və 40-a yaxın ölkə ilə bu cür Memorandumun bağlanması məsələsi müzakirə edilməkdədir. Bununla yanaşı, OECD tərəfindən hazırlanmış və vergitutma məqsədləri üçün müxtəlif dövlətlər tərəfindən xarici şəxslərin oradakı hesabları haqqında məlumatların toplanmasını, həmin şəxslərin rezidenti olduqları dövlətlərlə avtomatik mübadilənin vahid prinsiplərini tənzimləyən Ümumi Hesabatlılıq Standartına (Common Reporting Standard - CRS) əsasən, Azərbaycan Respublikasının «Səlahiyyətli orqanlar arasında maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsinə dair Razılaşma»ya qoşulması istiqamətində işlər görülməkdədir.

Hesab edirik ki, bütün bunlar vergi bazasının genişlənməsinə və dövlət büdcəsinə vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərəcəkdir.

# Вальтер Кофлер: В Италии будут строиться безопасные дома по технологии азербайджанских ученых



***Президент Международной Академии Наук (МАН) «Здоровье и Экология» (Австрия), профессор Вальтер Кофлер в эксклюзивном интервью газете "Игтисадиййат" сообщил о разработанной азербайджанскими учеными новой технологии строительства - Safe Buildings (Безопасные здания).***

**- Уважаемый профессор Кофлер, Международная Академия Наук H&E предложила строить сейсмостойкие дома в Италии на основе технологии разработанной в Азербайджане. Почему было принято такое решение?**

- Прежде всего, от имени Международной Академии Наук «Здоровье и Экология» я выражаю глубокие соболезнования народу Италии в связи с многочисленными жертвами в результате серии сильных землетрясений, произошедших начиная с 24 августа 2016 года по настоящее время.

Недавно я обратился к Премьер-министру Италии Маттео Ренци с предложением о срочном начале внедрения разработанной азербайджанскими учеными технологии сейсмостойкого строительства так называемых «Безопасных зданий». Международное научное сообщество не может оставаться безучастным к трагедии, которую пережил народ Италии в результате землетрясения. Мы понимаем, что Италия находится в сейсмоактивной зоне и сильные землетрясения на этой территории возможны и в будущем. Поэтому, новые дома, построенные на месте старых, должны быть сейсмостойкими.

В своем выступлении 26 августа 2016 г. премьер-министр Италии Маттео Ренци предложил строить новые сейсмостойкие здания: "План "Итальянские дома" – это серьёзная инициатива, а не просто слова. Этот проект будет очень хорошо систематизирован. Если предыдущим правительством не удавалось этого сделать, то для нас это совсем не повод не попытаться всё же помочь людям".

Вплотную работая над созданием новых технологий сейсмостойкого строительства, в Научно-исследовательском Институте прогнозирования и изучения землетрясений Международной Академии Наук, была разработана новая эффективная технология сейсмостойкого строительства "Safe Buildings" ("SB") при поддержке международного гранта НАТО, выделенного в рамках программы «Наука ради мира» в 2006 году. Проект был успешно завершен и принят международными экспертами. Здания, построенные по новой технологии, успешно прошли экспериментальные тесты на сейсмической платформе, имитирующей сильные землетрясения. Результат экспериментов – здания не разрушаются при землетрясениях интенсивностью более 10-ти баллов по шкале MSK-64.

Новая технология рассчитана на массовое строительство для широких слоев населения и ее основными преимуществами являются – высокая сейсмостойкость, простота, низкая стоимость, не превышающая стоимость обычных домов и быстрый процесс строительства (www.dbtpro.org).

Мы выступили с гуманитарной инициативой и предложили использовать новую технологию на максимально льготных условиях для строительства сейсмостойких домов в Италии.

**- Расскажите пожалуйста о преимуществах новой технологии.**

- Новая технология сейсмостойкого строительства является результатом выполнения международного научно-исследовательского проекта, направленного на разработку новой эффективной технологии сейсмостойкого строительства. В этом проекте большая роль отведена Научно-исследовательскому институту по прогнозированию и изучению землетрясений (SRIPSE) во главе с проф. Эльчином Халиловым.

Основная идея проекта заключалась в том, чтобы разработать и внедрить простую и доступную методику проектирования и строительства сейсмостойких кирпичных домов, а также стен и других конструкций, чтобы предотвратить их от разрушения во время сильных землетрясений и сильных взрывов различной природы, сводя к минимуму, таким образом, число жертв. Конечной целью проекта является обеспечение сейсмической безопасности людей во всем мире, особенно в наименее развитых странах.

Разработанная технология имеет свое запатентованное коммерческое название - "Dancing Building Technology", коротко - DBT. Название технологии отражает тот факт, что во время сильных землетрясений, эти здания изгибаются, а не разрушаются и эти деформации напоминают танцевальные движения. Другим названием технологии является - "Safe Buildings" («Безопасные здания»).

Разработка простой технологии, позволяющей строительство малоэтажных (до 5-ти этажей) сейсмически устойчивых домов, способных выдерживать сильные землетрясения интенсивностью более 10-ти баллов по шкале MSK-64 и ударные волны от взрывов, а также низкая себестоимость сейсмостойких зданий делает их строительство доступными для большинства местных жителей.

Одна из наших задач - создание компактного предприятия по производству сейсмостойких блоков, которые могут быть воспроизведены для реализации заинтересованным предприятиям и учреждениям.

В Азербайджане на данную технологию разработаны и утверждены национальные технические условия, что позволяет применять технологию в Вашей стране.

Мы с гордостью можем констатировать, что мы выполнили все, что планировали, не ограничиваясь изначально установленными целями. Мы разработали и протестировали несколько модификаций сейсмостойких блоков для различных климатических условий, не предусмотренных в начале; мы разработали и начали производство демпфирующих прокладок для сейсмоблоков (в дополнение к полужидкому демпфирующему веществу), которые будут использоваться между блоками.

**- Насколько актуально применение этой технологии в Азербайджане?**

- «Безопасные здания» невероятно актуальны не только для сейсмоактивных регионов, но также для зон локальных конфликтов и боевых действий, так как они могут максимально обезопасить людей, проживающих в этих зданиях от снарядов и взрывов, механических повреждений. Они также актуальны вблизи карьеров, зон горных выработок, предприятий создающих сильные вибрации, мощных насосных станций, гидротехнических сооружений.

Особо хотелось бы подчеркнуть, что эти здания также могли бы быть использованы в Азербайджане в рамках государственной программы по созданию социального жилья для малообеспеченных семей. Если в городах для этих целей строятся высотные здания, то в горных селениях и районах могут быть построены «безопасные здания» по данной технологии. Они незаменимы для строительства социальных объектов в сельских районах – школ, детских садов, больниц, государственных учреждений.

Строительство социального жилья для малоимущего населения, прежде всего, направлено на повышение уровня жизни азербайджанского народа, решение его самых насущных проблем. При этом особо актуально стоит задача обеспечения социальным жильем семей вынужденных переселенцев, пострадавших при оккупации Карабаха.

Имеется и другой немаловажный аспект применения данной технологии в Вашей стране. Огромные усилия Президента Азербайджана Ильхама Алиева дают большую надежду на возвращение Азербайджану в ближайшее время части оккупированных территорий Карабаха. Большая часть этих территорий представляют сельские районы, где традиционными являются кирпичные малоэтажные дома. Уже сейчас необходимо готовиться к строительству на освобожденных от оккупации территориях социального жилья для семей, которые будут возвращаться на родную землю. Учитывая, что вся территория Карабаха находится в 8-ми и 9-ти бальной сейсмоактивной зоне, необходимо предусмотреть строительство высококачественных недо-рогих сейсмостойких домов. Для практической реализации этой программы, Международная Академия Наук передала право на использование технологии «Безопасные здания» азербайджанской компании MAKS Ltd., которая входит в число лидеров на рынке строительства модульных зданий на Кавказе. Мы планируем с помощью компании MAKS Ltd. внедрить эту технологию в Италии, Турции, Индонезии и других странах Юго-Восточной Азии и Латинской Америки. В этой технологии нуждается большая часть населения нашей планеты.



Дело в том, что строительство зданий в городах и сельских районах имеет существенные различия с точки зрения технологии строительства и типов зданий. Если, в городах и поселках городского типа наиболее выгодно и эффективно строительство многоэтажных домов, то для сельских районов это неприемлемо, так как большинство жителей этих районов традиционно проживают 1-2-х этажных домах с приусадебными участками, на которых ведут натуральное хозяйство. Кроме того, они не привыкли к проживанию в домах городского типа и для них более комфортным является проживание в отдельном сельском доме. Другим фактором является то, что, большинство сел в районах размещены на пересеченной местности со сложным рельефом, где строительство высотных домов затруднено и экономически не выгодно.

Реализация программы строительства социального жилья для малоимущих семей в сельских районах позволит решить еще одну очень важную проблему – снизить безработицу в сельских районах Вашей страны.

Учитывая все вышесказанное, на днях я обратился к Президенту Азербайджана Ильхаму Алиеву, с которым я имел честь дважды встречаться в последние десять лет, с предложением начать внедрение в Азербайджане уникальной технологии, разработанной совместно азербайджанскими и турецкими учеными в рамках международных программ НАТО и Международной Академии Наук «Здоровье и Экология». Я уверен, что это чрезвычайно важное изобретение азербайджанских ученых поможет существенно снизить жертвы и негативные последствия в случае сильных землетрясений.

**- Большое спасибо за интересное интервью.**

***"Игтисадиййат"***




## *Очередная акция от ОАО «АтаБанк» и MasterCard*

ОАО «АтаБанк» с международной платежной системой MasterCard начали новую совместную рекламную акцию. По условиям акции держатели платежных карт МастерЪард от ОАО «АтаБанк» при покупке в супермаркете Браво в т.ц. «Гянджлик» на сумму минимум 40 манатов получают один из подарков предлагаемых на месте.

Акция будет продолжаться до 30 ноября 2016 года.

## Состоялись II Детские Паралимпийские Игры при поддержке Azercell

В Сумгайытском Паралимпийском спортивном комплексе состоялись II Детские Паралимпийские Игры при совместной организационной поддержке Azercell Telecom, Национального Паралимпийского Комитета и Азербайджанского представительства UNICEF. В этом году дети-паралимпийцы из различных регионов страны состязались в 5 видах спорта (дзюдо, плавание, теннис, голбол и боччa). Молодые атлеты, добившиеся успешных результатов на Детских Паралимпийских Играх, которые объединили более 60 детей с ограниченными возможностями, получили награды от Азерьелл Телеъом и Национального Паралимпийского Комитета. Для информации сообщим, Детский Паралимпийский Комитет, созданный в 2014 году при поддержке Azercell Telecom, объединяет детей и молодых людей из различных регионов нашей страны. Около 50 детей обрели возможность заниматься спортом, а также представлять Азербайджан на различных международных соревнованиях. Основной целью создания данного комитета также является поддержка процесса интеграции детей с ограниченными физическими возможностями в общество посредством их абилитации и реабилитации.




Отметим, что в рамках подготовки к II Детским Паралимпийским Играм мастера спорта по Паралимпийским видам спорта - легенды Первых Европейских Игр Ильхам Закиев, Сабина Абдуллаева, Закир Муслюмов и другие, посетили головной офис Азерьелл и пообщались с сотрудниками компании. Также напомним, что поддержка Детского Паралимпийского Комитета со стороны Azercell Telecom была удостоена специальной награды Азербайджанского Представительства Американской Торговой Палаты (АМСНАМ).

За 19 лет своей деятельности в Азербайджане, Azercell постоянно старался оказывать всестороннюю поддержку детям-сиротам, детям с различными проблемами, помогал в охране их здоровья, в обеспечении доступа к качественному образованию и поощрении здорового образа жизни. Azercell и впредь продолжит оказывать помощь процессу интеграции молодёжи в общество и повышения их мотивации для занятия спортом посредством поддержки деятельности Детского Паралимпийского Комитета.

## «АтаТехнология» представила «HRM360»

11 ноября состоялась конференция, посвященная презентации нового программного обеспечения компании «АтаТехнология» - «ЩРМ360». Созданное специалистами компании «АтаТехнология» на основе программных решений «Майкрософт», данное программное обеспечение, предназначено для применения в сфере человеческих ресурсов и рассчитано на использование специалистами ЩР. В пресс-конференции приняли участие специалисты в области ЩР.

Директор департамента по проектам компании «АтаТехнология» Джахангир Ганизаде ознакомил присутствующих с техническими и уникальными возможностями «ЩРМ360»: «В программе имеется возможность доступа сотрудников к своим данным. То есть обеспечивается полная прозрачность взаимоотношений работодателя и работника и происходит экономия времени HP менеджера.

Поскольку в программное обеспечение заложена возможность использования различных языков, это позволяет экспортировать в любую страну мира, предварительно адаптировать к ее национальному законодательству».В ходе конференции была продемонстрирована работа с программным обеспечением «ЩРМ360» и даны ответы на интересующие вопросы ее использования.

Позднее Джахангир Ганизадеотметил: «За долгое время работы на рынке программного обеспечения сталоочевидным отсутствие в Азербайджане всеохватывающего программного обеспечения по человеческим ресурсам. Обладая более чем 10 летним опытом программирования в различных по профилю предприятиях, мы подготовили данную программу с учетом потребностей отделов по человеческим ресурсам. Программа обеспечивает взаимодействие по ЩР любой коммерческой и некоммерческой структуры во всевозможных сферах деятельности».



ООО «АтаТехнология» учреждено в 2004 году «АтаХолдинг» и со дня своего создания действуя в сфере информационных и коммуникационных технологий, в сотрудничестве с ведущими мировыми компаниями. Является местным партнером компаний "Мирософт", «НР», « Лоэо А.Ш», «Ораъле», «Ъисъо», «Делл», «ЫБМ» , оказывает услуги на местном рынке в направлении "биснесс интеллизенъе". Так же имеет крупную долю рынка мобильных услуг в качестве смс провайдера для корпоративных клиентов под брендом «Мобис». Компания «АтаТехнология» много лет занимается предпродажной адаптацией различных программ по автоматизации бухгалтерии, склада, продаж, логистики, производства, человеческих ресурсов и пр. осуществляла на крупных организациях и предприятиях ряд успешных проектов.

Nostalji

# 15 il əvvəl “İqtisadiyyat”ın səhifələrində

**Mətbuatda, xüsusilə də qəzetdə işləməyin anlaşılmaz, bəlli olmayan tərəfləri var. Hərdən illər uzunu gördüyün iş haqqında sanki hesabat verirmiş kimi ötən illəri bir daha nəzərdən keçirmək istəyirsən. Bu dəfə də elə oldu. Birdən-birə keçmişə qayıtmaq, o illəri, günləri, hətta saatları, dəqiqələri yada salmaq, illər öncə oxuduğum maraqlı bir kitab kimi vərəqləmək keçdi ürəyimdən. 2001-ci ilin qəzetlərini əlimə aldım. Düz 15 il əvvəl yazılan yazılara bir də baxdım, oxudum və... Həmin günün təəssüratlarını bir daha yaşadım. O günü Azərbaycan ədəbiyyatşünaslıq elminin layiqli nümayəndələrindən biri, AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev də çox gözəl qələmə almışdı. Həmin yazını olduğu kimi oxucuların nəzərinə çatdırmaq istərdim.**

## Mən bir tut ağacıyam



Yaşar QARAYEV

Azərbaycan xalqına “şair xalq”, “bəstəkar xalq” deyirlər. Elə bu səbəbdən də azərbaycanlını şeirlə, mahnıyla heyrətləndirmək çox çətindir. Xalqın yaratdığı bayatılar, mahnılar yüz illər keçsə də, qocalmaq bilmir, əksinə hər oxunuşda təravətlə səslənir. Elə əsl bəstəkar da odur ki, onun əsəri tez sevilir və bu el məhəbbəti soyumaq bilmir. Aygün Səmədzadə də belə xoşbəxt sənətkarlardandır, gənc olsa da, musiqisevərlər onun “Məktəb illəri”, “Həsrət nəğməsi”, “Dəniz”, “Gəl, qayıdaq o sahilə” kimi lirik, həzin, kövrək duyğular oyadan mahnılarının vurğunu olmuşlar.

Bu günlərdə köhnə “İnturist”in məşhur salonunda Aygün Səmədzadənin Zəkirə Allahverdiyevanın sözlərinə bəstələdiyi “Tut ağacım” adlı klip-hədiyyə paylanılmışdır. O, qeyri-adi, sehrli bir tədbir idi. Burada respublikamızın görkəmli musiqi xadimləri Sara Qədimova, Akif İslamzadə, Tələt Qasımov, Ramiz Zöhrabov, Şəfiqə Eyvazova, professor Vasim Məmmədəliyev, telejurnalist Ələddin Əsədzadə və başqaları çıxış edərək, yeni klipin uğurundan, musiqinin orijinallığından, dinləyicidə xoş əhval-ruhiyyə yaratmasından, musiqi ilə poeziyanın ecazkar vəhdətindən, məlahətli səsi olan Aygün Hümbətovanın ifaçılıq məharətindən danışdılar. Mərasimdə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Yaşar Qarayevin bir dinləyici kimi təəssüratını oxuculara çatdıraq.

Nazim Hikmətin məşhur misrası var: “Mən ceviz ağacıyam Gülxanə parkında". Təkcə Gülxanədə yox, indi elə bir yaddaş, hafizə, xatirə, yoxdur ki, bu ceviz orda rişə atmasın. Rəsul Rzanın Göyçay narı, Səməd Vurğunun, Mikayıl Müşfiqin, Məmməd Kərim Sanılının poeziyasında bitən palıd və şam meşəsi milli rəssamlıqda, folklorda və xalq tətbiqi sənətində də fitri təbii və bədii ekoloji relyefi təşkil edir. Amma tut simvolikasına mən nə natürmortda, nə də musiqi etüdlərində rast gəlmişəm.

Tut emblemi Şəki peyzajının fitri təbii emblemidir, ipək təbiəti, ipək məlahəti və musiqisi şəklinin dilində, ruhunda və varlığında tut nemətinin əlaməti və ifadəsidir. Amma tut portretiylə nə Şəkinin arxitektura memarlıq panoramında, nə də Bəxtiyar Vahabzadənin lirika, peyzaj mehrabında rastlaşmışam.

Əvəzində mən tut lirasını, bu liranın əsəbində, sinirində, simində köklənən leytmotivi, tut pöhrəsinin ləçəyinə, yarpağına yazılan misraları Bakının lap göbəyində, Xəzər sahilində hər bakılıya “köhnə İnturist” kimi tanış olan əski binada dinlədim. O gün qoca “İnturist”in özü bulvarda bitən qoca tut ağacına bənzədi və bu tutun altına yığışıb payızın lap axır, qışın lap əvvəl çağında yerə yelkən saldıq və klipdən tut çırpdıq.

*Tut ağacım,*
*Tut ağacım!*
*Aman yerim, uman yerim,*
*Sirli, sözlü aman yerim...*
*Uşaqlığım,*
*Ucalığım,*
*xəyalımda ucalığım...*
*Uşaqlığım, ucalığım,*
*Tut ağacım.*

Bol nemət, bar-bəhər süfrəsini ortaya üç nəcib kübar xanım, üç sahibə sərmişdi: iki Aygün və bir Zakirə!

Rejissor və operator bizim milli-mənəvi, fəlsəfi tut simvolikasına tam uyğun təfsilat, kaloritli, predmetli, etnoqrafik illüstrasiyalar tapa bilmişdir. Ruhdan qopub gələn, kədərdən, ağrıdan süzülən misralar (şairə Zakirə Abdullayeva) nisgilli, narın, zərif bəstəkarın (Aygün Səmədzadə) bədii ovqat və avazında dəqiq musiqi ekvivalentini tapmışdır. Bir təbii ahəngdə, harmoniyada qovuşan bu qoşa sim ən canlı, təbii və təsirli sintezi gənc müğənni Aygünün təzə, tər icra və ifa üslubunda tapmışdır. Sözlər də, musiqi də elə bil lap əvvəldən onun səsinə, ruhuna, həm daxili, həm də zahiri məlahətinin təkrarsızlığına biçilmişdi. Yox, Aygün Şəkidə bitən budaqlı, gövdəli, xoşbəxt və bəxtəvər, nəhəng tut ağacı deyildi. Abşeronda bitən, boyu insafsız bürküdən, istidən zədələnən, gövdəsi aramsız tufandan, küləkdən əyilən pərişan, əzabkeş tut ağacı idi. Vətənin dərd-səri, Qarabağın iztirabı, muğamın, heyratının, şikəstənin ağrısı bu səsdə və ifada fitri vücud kəsb etmişdi. Bu, göylərə baş çəkən, dumanla, ulduzla qovuşan nazənin xanımın, bəxtəvər gözəlin vücudunda və yatağında pənbəyə, bəzəyə (ipəyə-şala, örpəyə-kəlağayıya) çevrilən üzü ağ, bəxti bəyaz tut yarpağı və tut atlası deyildi, səngərdə şəhid köynəyinə, nakam məzarda, tabutda qara ipək haşiyəyə, Xuramanın yerə sərdiyi və erməninin tapdaladığı o qara kəlağayıya çevrilən tut yarpağı idi.

Axı, ananın, gəlinin ucada - başında tutduğu milli kəlağayı paklıqdır, ismətdir, qadın heysiyyatıdır, onu havada tutar və zirvədən, göydən yerə düşməyə qoymurlar (kişinin papağı kimi). Zirvədə saxlaya bilmədik biz Qarabağda havaya atılan kəlağayını. Məhz zirvədən torpağa düşən, əlçatmazdan çamıra düşən, yaraya, qana bulaşan kəlağayının iztirabı var Aygünlərin musiqisində və səsində. Zakirə xanımım ehtiras və söz harayında!

Behiştdə bitən xurma ağacı idi bir vaxtlar bizim üçün Qarabağda, Şəkidə bitən tut ağacı. Sabir Əhmədli indi onu cəhənnəmdə bitən iztirab və əzab ağacı kimi təsvir edir (“Ömür urası” romanı). Vətəndaş ədib həm doğma kəndinin işğalını, həm də qələbədən sonra Sabirin özünün ora qayıtmasını təsvir edir. Bütün ağaclar kəsilib məhv edilmiş, bütün kənddə yalnız məğrur, əbədi, əyilməz gər (tut) ağacı sağ qalmışdı. Tutun gövdəsinə sədaqəti bir də ilan qoruyub saxlamışdır. Xəyalən kəndə qayıdan ədib, doğma tut oyuğunu nə didərginliyə, nə da qaçqınlığa dəyişən rəmzi ilan və bir də sabitlik, vəfa, sədaqət rəmzi Tut (kənddə deyildiyi kimi, “gər”, yəni güc ağacı) - üçlükdə kimsəsiz (ağacsız və adamsız) kənddə tənha görüşürlər. Mən bu tragik görüşün, müqəddəs, sehrli söhbətin və bu gələcək görüş nağılına ziyalı ümidinin səsini, sədasını mahnıdakı musiqidən, musiqidəki misralardan eşitdim.

*İndi sənin budağında*
*ləpir salıb bir iz qoymaq*
*axı, nec də çətin olub,*
*müşkül olub...*
*İndi yoxsan*
*əlçatmaz bir ulduz kimi,*
*Günəş kimi.*
*İndi yoxsan yuxularda*
*Mən gördüyüm*
*nənəm kimi,*
*anam kimi,*
*Tut ağacım...*

İzzət-nəfs, qürur, sədaqət rəmzi “Tut ağacı” silsiləsindən yeni-yeni şeirlərə, nəğmələrə, kliplərə uğurlu yollar, əziz müəlliflər! Qoy, bu “Tut ağacım” mahnısı da Sabir Əhmədlinin doğma kəndindəki Tut ağacı kimi tək və tənha qalmasın...

*“İqtisadiyyat” qəzeti,*
*9-15 noyabr 2001-ci il*




*2001-ci il noyabrın 30-da “İqtisadiyyat” qəzeti yazırdı:*

Mahnı var ki, səslənir, dinlənir, unudulur. Mahnı var ki, ürəklərə hopur, yadda qalır. Bir də görürsən ki, özündən asılı olmayaraq, həmin mahnını zümzümə edirsən. Bu cür mahnı yaradanlar tək-təkdir.

Son zamanlar dinləyicilərin ürəyinə yol tapmış mahnılardan “Məktəb illəri”, “Gəl, qayıdaq o sahilə”, “Dəniz”, “Həsrət nəğməsi”, “Tut ağacım”, “Ruhumuz qovuşacaq”, “Qaraçı”, “İstəmirəm bu eşqi” kimi mahnıların adını çəkmək kifayətdir.





Bu populyar mahnıların yaradıcısı gənc bəstəkar, professional musiqi təhsili almış Aygün Səmədzadədir. Gənclik şəhəri Sumqayıtın möhtəşəm “Mətanət” şadlıq sarayında bəstəkarın yaradıcılıq gecəsi keçirilmişdir. Bu görüş Sumqayıt sakinləri üçün əsl sənət bayramına çevrilmişdir. Tanınmış sənətçilərdən Flora Kərimova, Ruhəngiz Allahverdiyeva, Nazpəri Dostəliyeva, Mətanət İsgəndərli, Gülyanaq Məmmədova, Aygün Hümbətova, Vasif Məhərrəmli, İlahə Fəda, gənc Mehri, Rəşad İlyasov bəstəkarın mahnılarını ifa etdilər. Şairlərdən Vahid Əziz, Zakirə Allahverdiyeva, Kəmalə Abıyeva öz ürək sözlərini söylədilər. Mahnılar bir-birini əvəz etdi. Alqış sədaları ətrafı bürüdü. Nəhayət, Aygün Hümbətovanın canlı ifasında tamaşaçıların səbirsizliklə gözlədiyi “Tut ağacım” səsləndi. Firuz Əliyevin tarda gözəl ifası isə mahnıya xüsusi ruh verirdi. Klipin də mahnı ilə birgə nümayişi tamaşaçıları heyran qoydu. “Tut ağacım” həyatın bir parçası, əsl Abşeron lövhəsi idi.

Qısa bir müddət ərzində şəhərin səs-küyündən, gündəlik problemlərindən, real aləmin çətinliklərindən ayrılan tamaşaçılar Aygün Səmədzadənin lirik mahnılar dünyasına düşmüşdü sanki. Burada zaman və məkan bilinmirdi. Uşaqlıq, yetkinlik, gənclik, qocalıq... Musiqinin eczakar qüvvəsi onları gah məktəb illərinə, gah xəyallar aləminə, gah da qocaman tut ağacının kölgəsinə aparırdı.

Gecəyə toplaşanlar bəstəkar Aygün Səmədzadənin yaradıcılığını yüksək qiymətləndirdilər. Çıxış edənlər onun sənətinə xəlqilik xas olduğunu vurğulayaraq istedadlı bəstəkar kimi səciyyələndirdilər.

*30 noyabr - 6 dekabr 2001-ci il*

*“Tut ağacım” mahnısı artıq 15 ildir böyük səhnələrdə, konsert salonlarında, efirlərdə səslənir və yaşayır, hər kəsi özünə valeh edir. Aygün Səmədzadə dünyasının ən gözəl sakinlərindən biridir o...*

*Saflıq, şəffaflıq, müqəddəslik, ruzi-bərəkət rəmzidir tut ağacı. Bir az da nəsil şəcərəsinin bəlgəsidir. Tut ağacının kölgəsi yığnaqlı olar, gecələri nağıllı. Aygün Səmədzadənin yaradıcılığında bu müqəddəs varlığa həsr olunmuş mahnının yer alması da təsadüfi deyil. Onun nəğmələrində xalqın qədim tarixi yaddaşı, zəngin mənəviyyatı və bir də ağbirçək nənələrin, hikmət sandığı babaların nəfəsi qorunur sanki... Yəqin ki, elə bu doğmalığa görə də bu nəğmələr ürəkləri fəth edə bilir. Bu nəğmələr nəinki doğma Azərbaycanda, onun hüdudlarından kənarda da sevilir. Mahnının musiqisi və sözləri o qədər ürəyə yatımlıdır ki, əcnəbi müğənnilər belə onu Azərbaycan dilində sevə-sevə oxuyurlar...*

*Onu deyə bilərəm ki, bu gün Aygün xanımın bütün mahnıları dillər əzbəridir. Uşaqdan-böyüyə, hamı bu mahnıları zümzümə edir, “Məktəb illəri”ndən tutmuş “Biri varmış, biri yoxmuş”a qədər hamısı əzizdir bizə. Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi Aygün Səmədzadəyə can sağlığı, səadət və yaradıcılıq uğurları diləyi ilə,*

*YEGANƏ*






# BİRBAŞA POÇT REKLAMI



*(əvvəli ötən sayımızda)*

İnformasiya reklam məktubu, bir qayda olaraq, reklamvericinin firma blanklarında çap olunur və tirajı təyin olunur. Belə məktubların mətnində təqdim olunan məhsulun üstünlükləri və məziyyətləri haqqında ətraflı informasiya, həmçinin satış və ya əməkdaşlıq üzrə kommersiya təklifləri əks olunur. Çox zaman belə məktublarda tədiyyələrin, göndərişlərin və s. qiyməti, müddəti və şərtləri haqqında xəbərlər ehtiva olunur.

Hazırlanmış informasiya reklam məktubları ünvanlar üzrə potensial istehlakçılara və ya işgüzar tərəfdaşlara göndərilir ki, onların massivi hər bir konkret reklam aksiyasının məqsədlərinə və vəzifələrinə uyğun olaraq xüsusi formalaşmışdır.

Çap reklam materiallarının məqsədli göndərilməsi reklamverici və ya reklam agentliklərinin xüsusi xidmətləri tərəfindən eyni prinsip üzrə həyata keçirilir ki, bunların funksiyalarına təkcə sifarişçilərin təqdim etdikləri ünvanlar üzrə materialların göndərilməsinin təşkili yox, həm də ünvanların zəruri massivinin formalaşması daxildir.

Birbaşa poçt reklamının təşkili zamanı qaytarılan kuponlar sistemindən, ödəniş zəmanətilə sifariş blanklarından və s. istifadə edilməsi təcrübəsi ildən-ilə böyük təcrübə əldə etmişdir.

Sənaye məhsulunun və avadanlığının spesifik növlərinin satışının təşkili üçün birbaşa poçt reklamının nəticələri xüsusilə səmərəlidir və onların satın alınması qərarları xalq təsərrüfatının müxtəlif sahələrinin nisbətən kiçik mütəxəssislər qrupu tərəfindən qəbul olunur.

Birbaşa poçt reklamının əsas fərqli cəhətləri auditoriyaya, yəni potensial alıcılara münasibətdə seçmə qabiliyyəti və əmtəə (xidmətin) reklamı üçün müəyyən rayonun (regionun) seçilməsi imkanıdır. Bundan əlavə, birbaşa poçt reklamı reklamın şəxsi formalarından biri hesab olunur və ona məxfilik xarakteri vermək olar.

Birbaşa Poçt Reklamı Assosiasiyasının keçmiş prezidenti Edvard H.Mayer deyirdi: "Siz alıcıya və ya potensial müştəriyə ona məlum olan bütün adlardan ən vacibi olan – öz adı vasitəsilə, fərdi olaraq müraciət edirsiniz. Əsasən siz təəssürat yaratmağa cəhd göstərirsiniz ki, o kimdir, necə adamdır. Birbaşa poçt reklamının mətnlərinin əksəriyyətində siz onunla elə danışırsınız ki, sanki şəxsi görüşdəsiniz. Buna görə də birbaşa poçt reklamı o şəraitdə daha münasibdir ki, burada potensial alıcıya belə yanaşma məntiqlidir".

Lakin reklamın bu növünə xas olan seçmə qabiliyyətinin və fərdiləşmənin yüksək dərəcəsi yalnız o halda qiymətli amil qismində reallaşa bilər ki, bu zaman reklamverici və ya reklam agentliyi əmindirlər ki, həqiqətən, onlara lazım olan adamlara çıxa biliblər. Birbaşa poçt reklamı kütləvi yayılma metodundan fərqli olaraq seçmə yayılma metodundan istifadə edilməsini tələb edir ki, bundan da daha çox kütləvi informasiya vasitələrindəki reklamda istifadə olunur.

Birbaşa poçt reklamı termini adətən bu reklam növünə aid olan bütün fəaliyyət aspektlərini əhatə etmir. Daha dəqiq desək, bu fəaliyyəti "birbaşa reklam" da adlandırmaq olar, belə ki, bu termin həm birbaşa poçt reklamını, həm də "qeyri-poçt reklamını" ehtiva edir. Birbaşa reklamın böyük bir hissəsi poçtla göndərilir, lakin xeyli, yəni artan hissəsi "hər bir qapıya" prinsipi üzrə yayılır. Reklam müraciətləri yoldan keçənlərə paylanır, mağazalarda, marketlərdə alıcılara verilir, bilavasitə poçt qutularına atılır və ya evin sakinlərinə verilir.

Mətnin üslub xüsusiyyətinə görə birbaşa reklam reklamın digər növlərindən heç cür fərqlənmir. Lakin birbaşa reklamın mətnləri fiziki formaların saysız müxtəlifliyində verilə bilər. Bu halda ölçülər, forma, şrift tərtibatı, rəng və illüstrasiyalar reklamın digər formalarında olduğu kimi bir o qədər əvvəlcədən müəyyən edilməmişdir, buna görə də onların uzlaşması reklam vericisi və ya reklam agentliyi tərəfindən hər bir konkret halda müəyyən olunur. Birbaşa reklamda məktublardan, vərəqlərdən, prospektlərdən, bukletlərdən, kataloqlardan, poçt açıqcalarından, dəvətnamələrdən, proqramlardan, plakatlardan, təqvimlərdən, çap suvenirlərdən, vizit kartlarından, sifariş blanklarından, ticarət sorğu kitabçalarından daha çox istifadə olunur.

Birbaşa poçt reklamından istifadənin səmərəliliyi reklamvericidə və ya reklam agentliyində olan ünvanların xüsusi bazasının movcudluğundan asılıdır. Əgər reklam vericisi və ya reklam agentliyi xəyali alıcıları yox, həqiqətən, potensial alıcıları əhatə etməyi nəzərdə tutursa, onlar mükəmməl tərtib edilmiş ünvanlı siyahı ilə başlamalıdırlar.

*(davamı gələn sayımızda)*

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Avropa İttifaqının missiyası Vergilər Nazirliyində

**TAIEX proqramı çərçivəsində fiskal sektorda hüquqi, institusional və iqtisadi mövzuda aparılan tədqiqatla bağlı Avropa İttifaqının missiyası ilə keçirilmiş görüşdə Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin rəisi Zaur Fətizadə ölkədə aparılan vergi siyasəti, Vergilər Nazirliyinin fəaliyyətinin əsas istiqamətləri və görülən işlər barədə məlumat verib.** Bildirilib ki, dünyada baş verən qlobal tendensiyalar və beynəlxalq inteqrasiyanın dərinləşməsi bilik menecmentinə əsaslanan, texnoloji baxımdan daim təkmilləşən vergi sisteminin yaradılmasını zəruri edir. Belə bir sistemin qurulması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi mütərəqqi islahatlar müasir prinsiplərə söykənir və bu prinsiplər bütövlükdə milli vergi sisteminin inkişafının elmi əsaslarla aparılmasının, strateji təhlil və innovasiyalardan istifadənin əhəmiyyətini daha aydın göstərir.



Vergidən yayınma riski ehtimal olunan vergi ödəyicilərinə münasibətdə Vergilər Nazirliyinin iş prinsipləri barədə məlumat verilərək bildirilib ki, Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsi tərəfindən bu funksiyalar yerinə yetirilir:

- vergidən yayınma hallarının qarşısının alınması;
- vergitutma bazasının genişləndirilməsi və vergi potensialının düzgün müəyyənləşdirilməsi sahəsində tədbirlərin görülməsi və onlara nəzarətin təşkili;
- vergi inzibatçılığı çərçivəsində risk meyarları nəzərə alınmaqla fəaliyyət sahələri üzrə təhlillər aparılması və vergidən yayınma risklərinin aradan qaldırılması ilə əlaqədar təkliflərin verilməsi;
- dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə fəaliyyət göstəricilərinin, eləcə də dövlət əsaslı vəsait qoyuluşu üzrə müəyyən olunan vəsaitlərin təhlil edilməsi;
- vergi ödəyiciləri üzrə vergidən yayınma risklərinin təhlili və s.

Bunlardan əlavə, baş idarə vergi risklərinin təhlili, onların minimallaşdırılması, vergi nəzarətinin təkmilləşdirilməsi, hüquqi şəxslərin dövlət qeydiyyatı və vergi ödəyicilərinin uçotunun aparılması, habelə vergilərin vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsi sahəsində təhlil və nəzarət işlərini yerinə yetirir.

Qonaqların diqqətinə çatdırılıb ki, Vergilər Nazirliyi vergidən yayınma hallarının qarşısının alınması, kölgə iqtisadiyyatının aradan qaldırılması və vəsaitlərin büdcəyə yönəldilməsi üçün kompleks tədbirlər həyata keçirir. Bu məqsədlə ictimai məlumatlandırma («Whistleblow») mexanizmi hazırlanacaq. Vergidən yayınan vergi ödəyiciləri üzərində ictimai nəzarət mexanizminin beynəlxalq təcrübə nəzərə alınmaqla yaradılması və vergidən yayınma faktları barədə vergi orqanına məlumat verən şəxslərin mükafatlandırılması nəzərdə tutulub.

Layihə rəhbəri Kristofer Uels biznes fəaliyyətinin vergiyə cəlb edilməsi üzrə davranış kodeksinə uyğun olaraq, zərərli tədbirlərin aradan qaldırılması ilə bağlı irəliləyiş, inzibati əməkdaşlıq və qarşılıqlı yardım, o cümlədən vergi inzibatçılığının həyata keçirilməsi və icra potensialı barədə danışıb.

Görüşdə fiskal siyasət, xüsusilə də vergi islahatlarının gedişatı, vergi sisteminin iqtisadi siyasət məqsədlərini nə dərəcədə dəstəkləməsi, büdcə vəsaitlərini dəstəkləmək üçün gəlirlərin əldə edilməsində ayrı-ayrı vergi növlərinin rolu, vergi siyasətinin müəyyən edilməsində Maliyyə, Vergilər və İqtisadiyyat nazirliklərinin rolu və vəzifələri, vergi qanunvericiliyində aparılan dəyişikliklərin mexanizmi və mütəmadiliyi, vergi qanunvericiliyində dəyişikliklər layihəsinin hazırlanması və s. barədə fikir mübadiləsi aparılıb.

# ADB Azərbaycana dəstək verməyə hazırdır



"Mənim Bakıya 3-cü səfərimin məqsədi Azərbaycana mövcud iqtisadi şəraitdə dəstək verməyi müzakirə etməkdir. Asiya İnkişaf Bankı Azərbaycana mövcud çətin iqtisadi vəziyyətdə dəstək verməyə hazırdır." Bunu Bakıda keçirdiyi mətbuat konfransında Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq bildirib. O, qeyd edib ki, səfər əsnasında Azərbaycanın iqtisadi inkişafı barədə məlumat alır, rəsmi şəxslər ilə görüşür: "Bu görüşlərdə yeni çağrışlar dövründə Azərbaycanın üzləşdiyi çətinliklərə Asiya İnkişaf Bankının göstərə biləcəyi effektiv dəstək planını müzakirə etmişik. Ən son iqtisadi prosesləri müzakirə etdik. Həmçinin, keçirilən görüşlərdə bu il aparılacaq fəaliyyət üçün yol xəritəsini dəqiqləşdirdik".

"Hal-hazırda isə hökumət rəsmiləri ilə 2017-2019-cu illəri əhatə edəcək fəaliyyət və əməkdaşlıq planlarını müzakirə edirik", – Vençay Janq əlavə edib. O, bildirib ki, ADB bu günə qədər Azərbaycana 2,8 mlrd. dollar kredit və qrant ayırıb.

ADB rəsmisi "Şahdəniz" layihəsinə də dəstək verəcəklərini və hazırda bu layihə ilə bağlı Direktorlar Şurasının qərarını gözlənildikləri bildirib: "Asiya İnkişaf Bankının (ADB) "Şahdəniz" layihəsi üçün ayırmağı planlaşdırdığı vəsait 1 milyard dollardır. Layihəyə bu qiymət təklif edilərkən biz ətraflı araşdırma aparmışıq. Ümid edirik ki, Şura krediti təsdiqləyəcək. Şura tərəfindən ratifikasiyanın noyabrın sonu – dekabrın əvvəlində gerçəkləşdirilməsi gözlənilir. Biz bunu səbirsizliklə gözləyirik. Bu, çox böyük layihədir. Layihədən bizim də bəzi ekoloji gözləntilərimiz var", - deyə Vençay Janq qeyd edib.

*MƏTANƏT*




# Risk əsaslı təhlil

Vergilər Nazirliyi və Avropa İttifaqı arasında icra edilən «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi çərçivəsində nazirliyin əməkdaşları Fransa və İspaniya Krallığında səfərdə olmuşlar. Səfər zamanı riskli vergi ödəyicilərinin müəyyən edilməsi üçün istifadə olunan məlumat mənbələrinin öyrənilməsi və müasir informasiya texnologiya alətlərinin tətbiqi ilə bağlı Fransa Respublikasının və İspaniya Krallığının vergi administrasiyalarının təcrübəsi öyrənilmiş, fikir mübadiləsi aparılmışdır.

Səfərdə Azərbaycanı Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin rəis müavini Asəf Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.




# "Excelsior Hotel & Spa Baku" otelində "Musiqi bayramı" keçirildi

2016-cı il noyabrın 11-də "Excelsior Hotel & Spa Baku" otelində "AtaHolding" Şirkətlər Qrupunun əməkdaşlarının iştirakı ilə "Musiqi bayramı" keçirildi. Bayram tədbirində gözəl səs sahibləri - "Excelsior Hotel & Spa Baku" otelinin HR meneceri Kamran Rzayev və stajor Rəşad Əliyevin ifasında Azərbaycan və xarici repertuarlardan mahnılar səsləndi. Qonaqlar «Saçlarına gül düzüm», «My Way», «Shape of My Heart», «Sinəə veçnostğ», «Qorod moy Baku», «Tam net menə», «Kak molodı mı bıli» kimi unudulmaz kompozisiyaları, eləcə də bir çox nəsillərin sevdiyi digər mahnıları dinlədilər. Bundan başqa, tədbirdə Azərbaycanın xalq artisti Müslüm Maqomayevin və dünya şöhrətli rok-n-roll kralı Elvis Preslinin həyat və yaradıcılığı haqqında filmlər nümayiş etdirildi.



"AtaHolding"-in korporativ kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova qeyd etdi ki, keçirilən "Musiqi bayramı" "AtaHolding" Şirkətlər Qrupunun kollektivinə nəinki bir daha birlikdə yığılmağa, həm də gözəl melodiyalar dünyasına qovuşmağa imkan verdi. Xüsusilə önəmli və xoşdur ki, əməkdaşlarımız arasında vokal ifaçılıq istedadı olanlar vardır.

"Excelsior Hotel & Spa Baku" oteli 2005-ci ildən fəaliyyət göstərir. Oteldə 1 "İmperial" lüks otagi, 2 "Royal" lüks otaq, 4 "Crown" lüks otağı, 45 "Heritage" standart otaq və 9 "Duke" standard otaq, həmçinin, konfrans zalları, biznes mərkəzi, restoranlar, "Aura" sağlamlıq mərkəzi və s. var.

# Londona gedəcək jurnalistlər bəlli oldu

**Azercell Telekom MMC-nin Kaspi Təhsil Şirkəti ilə birgə təşkil etdiyi jurnalistlər üçün ingilis dili kurslarının növbəti mərhələsi başa çatıb. Noyabrın 10-da keçirilən mətbuat konfransında Londona təhsil almağa gedən daha 2 jurnalistin adı açıqlanıb. 2017-ci ildə Londona səfər edəcək qalib jurnalistlər Məmmədova Səadət və Samir Hüseynov oldular. Bu jurnalist tələbələr kurs müəllimləri tərəfindən keçirilən imtahanlarda yüksək nəticələr göstərərək Böyük Britaniyada ingilis dilini təkmilləşdirmək imkanı qazanıblar.**




Tədbirdə bu il ingilis dili kursunu uğurlu başa vuran jurnalistlərə sertifikatlar təqdim olundu.

Qeyd edək ki, sözügedən layihə zamanı 6 ay ərzində mətbuat nümayəndələri bir neçə səviyyədən ibarət ingilis dili proqramı üzrə tədris keçiblər. Nəticədə, jurnalistlər ingilis dilinin qrammatikası, danışıq və yazı bacarıqlarına yiyələniblər. Kursların məqsədi Azərbaycanlı jurnalistlərin dil öyrənməsinə kömək etmək, onların ingilis dilli mənbələrdən sərbəst istifadəsinə yardımçı olmaqdan ibarətdir.

Məlumat üçün bildirək ki, "Azercell" şirkəti jurnalistlər üçün xarici dil kurslarını artıq 6 ildir ki, təşkil edir. Bu günə kimi yüzlərlə KİV nümayəndəsi ixtisaslaşmış xarici dil kurslarında iştirak edib. Bununla da KİV nümayəndələrinin inkişafına yönələn bu layihə ilə "Azercell" şirkəti onların peşəkar bacarıqlarının artırılmasına və beynəlxalq əlaqələrinin qurulmasına dəstək olur.

Xatırladaq ki, Azercell Telekom fəaliyyətdə olduğu müddət ərzində media nümayəndələri üçün daim maraqlı layihələr təşkil edib. Azercell yeganə mobil operatordur ki, sırf KİV işçiləri üçün xüsusi tarif planı - Mediacell tarifini hazırlayıb. Azercell Telekom hər zaman olduğu kimi Azərbaycanın mətbuatının inkişafına öz dəstəyini göstərməkdə davam edəcək.

"Azercell" şirkətinin təşkil etdiyi İngilis dili kurslarına növbəti qeydiyyat barədə mətbuat nümayəndələrinə əlavə məlumat veriləcək.

# "Bookmate" istifadəçilərinin sayı 11000 nəfəri keçdi

**Azercell Telekom MMC-nin ötən ilin noyabr ayında mütaliə sevərlər üçün təqdim etdiyi "Bookmate" layihəsindən yararlanan abunəçilərin sayı getdikcə artmaqdadır. Belə ki, istifadəyə verildiyi gündən indiyə qədər 1 il ərzində xidmətdən mütəmadi olaraq faydalanan istifadəçilərin sayı 11000 nəfəri keçib. Ümumilikdə, isə bu bir il ərzində 40000-ə qədər insan "Bookmate" əlavəsindən istifadə edib.**

Məlumat üçün bildirək ki, "Bookmate" minlərlə kitabı elektron cihaz üzərindən oxumaq üçün yaradılmış mobil tətbiqdir. Bu xidmət telefonda, planşetdə və kompüterdə maraqlı əsərləri tapıb oxumağın ən rahat yoludur. Azercell-in güzəştli qiymətlə təqdim etdiyi mobil kitabxanada 600 000-dən artıq kitaba çıxış təmin olunub. "Bookmate" mobil kitabxanasına günlük cəmi 15 qəpik ödəməklə, oxucular yalnız xarici ədəbiyyat deyil, azərbaycanlı müəlliflərin əsərləri ilə də tanış ola bilərlər. Eyni zamanda, aylıq 3,5 AZN ödəyərək siz "Bookmate" vasitəsilə istənilən kitabı oxuya və öz kitabxananıza əlavə edə bilərsiniz. Yeri gəlmişkən, əlavəni yükləyən hər bir yeni abunəçi "Bookmate"dən 1 həftə ərzində pulsuz istifadə etmək imkanı qazanır. Qeyd edək ki, danışıq balansından ödəniş imkanı abunəçilər üçün vaxt itirmədən, heç bir kredit kartından istifadə etmədən elektron kitabxanadan rahat şəkildə yararlanmaq imkanı verir. Xidmətin ən mühüm üstünlüklərindən biri "Bookmate" kitabxanasında kitab oxumaq üçün daimi internetə ehtiyacın olmamasıdır. Çünki yüklənən kitabı istənilən vaxt, istənilən yerdə, məsələn, metroda və təyyarədə oxumaq mümkündür. Həmçinin, əlinizin altında olan cihazın– telefon, planşet və ya kompüter olmasının fərqi yoxdur. Çünki kitab cihaza yox, sizin şəxsi kitabxananıza əlavə edilir.



YENİ NƏŞRLƏR

# "Təbiətdən istifadənin iqtisadiyyatı"

Təbiət bütün elmlərin və biliklərin mənbəyidir. İnsan öz şüuru ilə təbiəti öyrənərkən obyektiv qanunları kəşf edir və bu qanunlara əsasən təbii qüvvələri və prosesləri cəmiyyətin istifadəsinə verir.



**İnsan - təbiətin ən böyük möcüzəsi, bəşəriyyətin ən ali varlığı. Dünyaya gözünü açdığı gündən təbiətin bəxş etdiyi nemətlərdən faydalanır, suyunu içir, havası ilə nəfəs alır, torpağına qədəm basır, günəşin istisinə qızınır.** Təbiətin yaratdığı bitkilərlə, suda-quruda yaşayan digər canlılarla qidalanır, təbiətin yeraltı-yerüstü sərvətlərindən istifadə edir. Yaşayır, böyüyür, inkişaf edir. Beləcə təbiətdən yararlanır. İnsan getdikcə təbiəti özünə təslim etmək üçün daha yaxşı vasitələr axtarmağa çalışır, yeni üsullara can atır, maraqlı kəşflər dalınca qaçır. Yalnız bir məqsədlə - mənimsəmək, istifadə etmək üçün. Meşələri, düzənlikləri, dağları gücümüzə ram edib özümüzə yeni məskən seçirik, bəzən gölləri, bataqlıqları qurudub yerində evlər tikir, şəhərlər salırıq, bu yerlərin daimi sakinləri olan təbiətin digər canlılarını nəzərə almadan. Sanki bu zaman hər bir nemətin bizimçün yarandığını, bizə məxsus olduğunu düşünürük fərqinə varmadan. Bəs, bütün bunların əvəzini nə ilə ödəyirik? Təbiətə olan əbədi borcumuzu qaytara bilirikmi? Bu suala cavab verməkdə hamımız acizik. Çünki onun cavabını dərindən düşündükcə bunun mümkünsüz olduğunu dərk edirik. Ən yaxşı halda mümkün qədər meşə sahələrini qorumaq, ağaclar əkmək, nadir hesab olunan canlıları qorumaq, havanın zəhərli qazlarla çirklənməsinə yol verməməklə təbiət qarşısında olan borcumuzun bitdiyini hesab edirik. Lakin bəşəriyyət Yer üzərində həyatını davam etdirdikcə, təbiətin tükənən, tükənməz, nadir və ya bol olan sərvətlərindən istifadə genişləndikcə elmi fikirlərə söykənən mütərəqqi ideyalar yaranmağa başlamışdır. Doğrudur, təbiətdə baş verən hadisələr, dəyişikliklər hələ çox-çox illər öncə alimləri düşündürmüş, onların baş vermə səbəbləri haqqında mütəfəkkirlərin maraqlı, eləcə də ziddiyyətli fikirləri yaranmışdır. Bununla belə, amerikalı alim Corc Marşın 1864-cü ildə nəşr etdirdiyi "İnsan və təbiət" adlı kitabında ilk dəfə olaraq insanın təbiətə mənfi təsiri nəticəsində müvazinətin pozulmasının baş verməsi haqqında fikirlər öz əksini tapmışdır. Sonralar bu ideyalar getdikcə yayılaraq problemə baxış bucağını genişləndirdi. Cəmiyyətlər, parklar yaradıldı, təbii sərvətlərin qorunmasına xidmət edən qərarlar, qanunlar qəbul edildi.

Təbii sərvətlərdən səmərəli istifadə olunması öz elmi-nəzəri əsaslarını təbiətdən istifadənin iqtisadiyyatında tapmışdır. Bu elm sahəsi artıq neçə illərdir ki, iqtisadçılar, ekoloqlar, təbiətşünaslar tərəfindən öyrənilir və tədris edilir. **Bu baxımdan *iqtisad üzrə fəlsəfə doktoru Raibə xanım Cəfərovanın yazmış olduğu "Təbiətdən istifadənin iqtisadiyyatı" adlı dərslik* öz** quruluşuna, maraqlı məzmununa, qoyulan problemlərin aktuallığına görə xüsusilə diqqəti cəlb edir və dəyərli məlumatlarla zəngin olan elmi araşdırmaların bitkin nəticəsi kimi dəyərləndirilir.

Müəllif qeyd edir ki, bu gün təbiətdən istifadənin iqtisadiyyatı fənninin tədris olunmasında məqsəd ictimai istehsalın dinamik inkişafına nail olmaq üçün təbii sərvətlərdən səmərəli istifadəni təşkil etməkdir.

Ümumilikdə, kitab 5 fəsildən ibarətdir. ***Kitabın "Təbiətdən istifadənin iqtisadiyyatı fənninin nəzəri əsasları" adlanan 1-ci fəslində*** fənnin tarixi, mahiyyəti, predmeti, məqsəd və vəzifələri öz əksini tapmışdır. Müəllif fənnin tədqiqat metodları və elmlər sistemində mövqeyini açıqlayaraq qeyd edir ki, təbiətdən istifadə nəticəsində yaranan müxtəlif elmi baxışlar onun bir sıra elmlərlə, o cümlədən coğrafiya, geologiya, iqtisadiyyat, texnika, kimya, biologiya, fizika ilə qarşılıqlı əlaqədə inkişaf etməsini şərtləndirmiş və formalaşdırmışdır. Təbiətdən istifadənin iqtisadiyyatının ən böyük nailiyyətlərindən biri təbii resursların hasilatı və istehsal dövriyyəsinə cəlb olunması zamanı texnikanın yeni nailiyyətlərinin mənimsənilməsidir.

Müəllif haqlı olaraq qeyd edir ki, müasir dövrdə ekoloji təhlükəsizlik baxımından təbiətə təsir prosesində qəzaların, təbii fəlakətlərin zərərverici xarakterini öyrənmək, bunlara qarşı mübarizə tədbirlərini aparmaq bəşəri problemə çevrilmişdir. Kitabda müəllif təbii ehtiyatların istifadəsində iqtisadiyyatın xüsusi rolunu vurğulayaraq qeyd edir ki, yer kürəsində və onun ayrı-ayrı regionlarında təbii resursların yayılmasından asılı olaraq istehsal sahələri qeyri-bərabər şəkildə formalaşmışdır. Təbii şəraiti qənaətbəxş olan ərazilərdə cəmiyyətin məskunlaşması üçün əlverişli şərait yarandığı halda, təbii resursların istehsal dövriyyəsinə cəlb olunması daha da intensivləşir və təbii sərvətlərdən asılı olaraq iqtisadi sahələr (energetika, metallurgiya, tikinti malları, kimya sənayesi, meşə və ağac emalı, aqrar sənaye sahələri) yaranır. Müəllif qeyd edir ki, cəmiyyət artmaqda olan tələbatlarını daha çox təbii resurslardan istifadə etməklə ödəməyə çalışır. Lakin onlardan səmərəsiz istifadə ekoloji tarazlığın pozulmasına gətirib çıxarır. Müəllifin fikrincə, Azərbaycan Respublikasında ekoloji tarazlığın pozulmasının qarşısının alınması üçün ilk




növbədə dövlət bu sahəyə investisiyaları artırmaqla ətraf mühitə zərərli maddələrin təsirinin azalmasına nail ola bilər.

Kitabın ***"Təbii resurslardan kompleks istifadənin iqtisadi inkişafı" adlı 2-ci fəslində müəllif təbii*** sərvətlər və onlardan istifadə edilməsinin perspektivliyini təhlil edir, təbiətlə cəmiyyət arasında olan qarşılıqlı əlaqələr nəticəsində yaranan problemlərin həllinə oxucuların diqqətini cəlb edir. Azərbaycanda yanacaq-energetika kompleksinin fəaliyyətini təhlil edən müəllif bildirir ki, bu kompleks ölkə iqtisadiyyatının ən mühüm sahələrarası komplekslərindən biri olmaqla sənayenin bütün sahələrinin işini təmin edir, əhalinin məişətində əvəzsiz rola malikdir. Burada müəllif alternativ enerji mənbələri haqqında da məlumat verərək, bir çox dünya ölkələrində bunun daha geniş tətbiq olunduğunu bildirir, ölkəmizdə bu mənbələrdən istifadənin mümkün və zəruri olduğunu qeyd edir. Mineral resursların dünya ölkələrinin ərazisində qeyri-bərabər paylanmasını xarakterizə edən müəllif elmi və texniki imkanların köməyi ilə onların istismarı, yeni sənaye sahələrinin yaranmasının əhəmiyyətini qeyd edir. Azərbaycanın torpaq resursları, onlardan səmərəli istifadə edilməsi və mühafizəsi problemlərinə toxunan müəllif göstərir ki, insan öz fəaliyyəti ilə təbii şəraitə təsir edərək onun xassələrini pozur. Ona görə də torpağın mühafizəsi onun fiziki xassələrinin, kimyəvi və bioloji tərkibinin saxlanmasına yönəldilməlidir.

Müəllif eləcə də su sərvətlərinin səmərəli istifadəsi və onların mühafizəsini xüsusilə vacib problemlərdən hesab edərək, onun həm iqtisadi, həm də sosial əhəmiyyət daşıdığını göstərir. Kitabda həmçinin meşə sərvətləri, qoruqlar, milli parklar və yaşıllıqların ekoloji iqtisadi əhəmiyyəti və onların təbiətin mühafizəsində əvəzsiz rolu əsaslandırılmışdır.

Kitabın ***"Kənd təsərrüfatının resurs təminatı və ərzaq təhlükəsizliyi" adlanan 3-cü fəslində müəllif*** haqlı olaraq qeyd edir ki, kənd təsərrüfatı əhalinin zəruri istehlak mallarına olan tələbatının ödənilməsində iqtisadi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Bildirilir ki, kənd təsərrüfatının inkişafı yer kürəsində ərazinin təbii-coğrafi şəraitindən asılı olaraq formalaşır, inkişaf edir. Müəllif göstərir ki, adətən, dünya ərazisində dağlıq sahələr heyvandarlıq, düzənlik sahələr isə əkinçiliyin inkişafı üçün əlverişli hesab edilir. Bu baxımdan respublikamızın malik olduğu coğrafi-iqlim şəraiti bu sahələrin hər ikisi üçün müvafiq hesab edilə bilər. Kənd təsərrüfatının inkişafı üçün mühüm əhəmiyyət kəsb edən amillərdən biri də zəngin su ehtiyatlarının olmasıdır. Müəllif qeyd edir ki, kənd təsərrüfatı məhsullarının sənaye üsulu ilə emalı nəticəsində meydana gələn aqrar sənaye məhsulları əhalinin ərzaq tələbatlarının ödənilməsində vacib yer tutur. Taxılçılıq, bitkiçilik, üzümçülük, bostan-tərəvəz məhsulları və b. insanların qida məhsullarına olan tələbatını ödəməklə ərzaq təhlükəsizliyi üçün mühüm maddi baza yaratmış olur. Müəllif qeyd edir ki, qloballaşma şəraitində hər bir dövlətin qarşısında duran əsas vəzifələrdən biri ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə istehlakı daha çox yerli məhsullar hesabına ödəməkdən ibarətdir. Bu baxımdan müəllif aşağıdakıları təklif edir: aqrar sahəyə xüsusi qayğı və diqqət göstərilməsi bu sahənin rəqabətqabiliyyətliyinin yüksəldilməsini təmin edir; ərzaq təhlükəsizliyinin təmin edilməsinə şərait yaradılması, eləcə də alternativ ixrac sektorunun formalaşdırılması qeyri-neft sektorunun inkişafı baxımından da əhəmiyyətli rola malikdir. Müəllif hesab edir ki, neft gəlirlərindən aqrar sahəyə investisiyalar yatırılmasına başlanılmalı və bununla da gələcəkdə neftsiz Azərbaycanın ixrac sektorunu formalaşdırmaq olar.

Kitabın ***4-cü fəslində təbii ehtiyatların qiymətləndirilməsi və onlardan istifadənin iqtisadi*** səmərəsi təhlil edilir. Müəllif göstərir ki, keçmiş SSRİ-də uzun illər təbii sərvətlər pulsuz istifadə olunmuşdur, bu da israfçılığa şərait yaratmışdır. Bu baxımdan müəllif qiymətləndirilmiş təbii ehtiyatların milli sərvətlər sırasına salınmasını məqsədəuyğun hesab edir, göstərir ki, təbii ehtiyatlara düzgün qiymət verməklə problemləri uğurla həll etmək mümkündür. Bu məsələdə beynəlxalq təcrübələrdən də yararlanmaq məsləhət görülür. Ətraf mühitə təsirin qiymətləndirilməsi və ekoloji ekspertizanın əsas vəzifəsi ətraf mühit və cəmiyyət üçün qeyri-məqbul olan nəticələrin qarşısının alınmasına yönələn tədbirlərin həyata keçirilməsinin təmin edilməsidir.

Son dövrlər Azərbaycan da daxil olmaqla dünya ölkələrində təbii resursların istehsal dövriyyəsinə cəlb olunması sənaye və kənd təsərrüfatının inkişafı ilə yanaşı, qlobal ekoloji problemlər yaratmaqdadır. Kitabın sonuncu fəslində təbiətdən istifadə sahəsində beynəlxalq əməkdaşlığın rolundan bəhs edilir. Bildirilir ki, bu məsələlərdə qarşılıqlı əməkdaşlıq XX əsrin sonu XXI əsrin əvvəllərindən başlayaraq mühüm iqtisadi əhəmiyyət kəsb etmişdir. Bu prinsiplər ilk dəfə 1972-ci ildə İsveçin Stokholm şəhərində 1-ci ümumdünya konfransında irəli sürülmüşdür. Son zamanlar Azərbaycanın bir sıra beynəlxalq təşkilatlara üzv olması iqtisadi, siyasi və strateji sahələrdə, eləcə də təbii resurslardan kompleks istifadədə beynəlxalq əməkdaşlığın inkişafına təsir göstərmişdir. Nəticədə, BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı (FAO), Dünya Bankının Kənd Təsərrüfatı inkişafı üzrə Beynəlxalq Fondu (İFAD), Beynəlxalq İnkişaf Assosiasiyası (GTZ)və b. təşkilatlarla iqtisadi əməkdaşlıq yaradılması aqrar sahədə nailiyyətlərin əldə olunmasına təsir göstərmişdir. Aparılan təhlillərdən aydın olur ki, təbiətdən istifadədə ekoloji sahədə yaranan əməkdaşlıq təbii resurslardan səmərəli istifadə etmək və onun gələcək nəsillər üçün qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb edir. Eləcə də bu sahədə yaranan problemlərin həlli məqsədilə beynəlxalq səviyyədə qəbul olunmuş proqramlar təbii mühitin saflaşmasına təsir etməklə insanların sağlamlığının qorunmasında da mühüm rola malikdir.

Gərgin elmi axtarışların uğurlu nəticəsi olan iqtisad üzrə fəlsəfə doktoru ***Raibə xanım Cəfərovanın "Təbiətdən istifadənin iqtisadiy-yatı" adlı kitabı*** nəinki bu sahə ilə məşğul olan mütəxəssislər, iqtisadçılar, ekoloqlar, eləcə də bir vətəndaş üçün mühüm əhəmiyyət kəsb edir və bu tədqiqat işinin uzun illər insanlar üçün dəyərli iqtisadi məlumatlarla zəngin elmi mənbə olacağına heç bir şübhə yoxdur.

*Aytən SƏMƏDZADƏ*


## AGBank-ın Visaİnfinite, VisaPlatinum və VisaGoldkart sahibləri xüsusi güzəştlərdən yararlana biləcəklər




**Alış-veriş etməyi, dadlı təamları və gəzməyi sevənlər üçün sevindirici xəbərimiz var - Sizi Visa kartları ilə xüsusi təkliflər və endirimlər gözləyir!**

**Visa Gold**
Dəbə geyinməyi sevən "AGBank"-ın Visa Gold Kart sahiblərinə Lui Jo, gənc xanımların sevimli fransız brendi olan Pimkie-dan 15%-dək endirim təklif olunur, həmçinin "İ am" akssesuarlar mağazasında 15% endirim gözləyir. Kino həvəskarları isə Park Cinemada bütün seanslara 7,5 % endirim əldə edə biləcəklər.

**Visa İnfinite**
Dəblə addımlayan Visa İnfinite kart sahiblərinə isə BCBGMAXAZRIA-da, Hackett London mağazalarında 15% endirim təqdim edilir. Bu da hələ son deyil, Optimal Electroniks mağazalarında alış-verişi Visa İnfinite plastik kartı ilə edərkən 15% endirim ilə yararlana biləcəklər. nahar etmək arzusunda, olanları isə Xalca Restaurant & Lounge restoranında 15% endirim təklif olunur.

**Visa Platinum**
Visa Platinum kart sahiblərinə United Colours of Beneton, Nine West, Tara Jarmon 15% endirim təklif olunur. Əsl İtalyan kofesindən həzz almaq istəyənləri isə Espressamente Restoranında 10% endirim gözləyir.

**Qış nağılına hazırlaşmaq vaxtıdır!**



İDEAL DİZAYN
Daimi tərəfdaşınız



Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az


Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə kənd təsərrüfatı naziri Heydər Əsədova atası
**XANIŞ ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin üzvləri Ağalar Vəliyev, Cavid Qurbanov, Xanhüseyn Kazımlı, Rüfət Quliyev, Əli Məsimli, İlham Əliyev, Əsabil Qasımov, Tahir Mirkişili, Vahid Əhmədov, Mahir Abbaszadə, Aydın Hüseynov kənd təsərrüfatı naziri Heydər Əsədova atası
**XANIŞ ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Rəsul Balayev ailəsi ilə birlikdə kənd təsərrüfatı naziri Heydər Əsədova atası
**XANIŞ ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"İqtisadiyyat" qəzetinin rəhbərliyi və kollektivi kənd təsərrüfatı naziri Heydər Əsədova atası
**XANIŞ ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN**


Təsisçi: akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Kompyuter mərkəzinin direktoru: Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 (fax)
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlmədidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3150